RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 203 (8796) CÜMƏ AXŞAMI, 23 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Lələtəpədən Şuşayadək...

## İlham Əliyevin Cocuq Mərcanlıda səsləndirdiyi bəyanat üç il sonra gerçəkləşdi



2017-ci il 14 iyul, Cəbrayıl rayonu. İşğaldan azad edilən Cocuq Mərcanlı kəndində yenidən həyat canlanıb və 23 illik həsrətdən sonra kənd sakinləri doğma yurda qayıdırlar. Onların arzularını gerçəkləşdirən İlham Əliyev də Cocuq Mərcanlıdadır. Həm Aprel döyüşlərinin qalib komandanı, həm də vədinə sadiq Prezident kimi...

Dövlət başçısı hər zamankı kimi xalqın arasında, vətəndaşının yanındadır və qazanılan zəfərin xoş təəssüratlarını bölüşür. Nitqinin sonunda dünyaya, xüsusən də işğalçı Ermənistana mesaj ünvanlayır: “Bu gün Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız Şuşada dalğalanacaq”.

Bu, təsadüfən deyilən, xalqı yalan yerə ümidləndirən fikir deyildi. Çünki böyük etimad göstərərək onu özünə lider seçən xalq hər zaman İlham Əliyevə inanıb və güvənib. İlham Əliyev bu güvəni həyata keçirdiyi uğurlu siyasət, xalqa verdiyi vədlərə, sözlərə sadiqliyi ilə qazanıb. Ona görə də Cocuq Mərcanlıda səslənən bəyanat Azrəbaycan xalqının qələbəyə inamını daha da artırdı və Aprel döyüşlərində ağır zərbə alan düşmənin canına bir daha vəlvələ saldı.

### Əsir torpaqlarımıza açılan ümid qapısı

Cocuq Mərcanlı erməni əsarətində qalan Qarabağ torpaqlarına aparan yolun başlanğıcı, Şuşaya, Ağdama, Laçına, Kəlbəcərə və digər əsir torpaqlarımıza açılan ümid qapısı oldu. Elə kəndin girişindəki lövhələrdə əksini tapan “Cocuq Mərcanlıdan Şuşaya” lövhəsi də hər kəsi duyğulandırmaqla yanaşı, içimizdəki inam hissini də artırdı.

Ardı 4-cü səh.

# Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlər var

## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı - Krallıq elan edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan Respublikası dini və mədəni köklərlə bağlı olduğu Səudiyyə Ərəbistanı ilə dostluq və qarşılıqlı etimad ənənələrinə söykənən münasibətlərinə xüsusi əhəmiyyət verir. Müxtəlif sahələri əhatə edən səmərəli əməkdaşlığımız, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətimiz yüksək səviyyəli münasibətlərimizi səciyyələndirən xüsusiyyətlərdəndir.

Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına Səudiyyə Ərəbistanının verdiyi dəstəyi və ədalətli mövqeyini xalqımız daim yüksək qiymətləndirir.

Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlər vardır. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq prosesində qardaş ölkənizi təmsil edən şirkətlərin iştirakı iqtisadi əlaqələrimizin şaxələndirilməsinə önəmli töhfə verə bilər.

Əminəm ki, güclü İslam həmrəyliyinə əsaslanan Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli qaydada, həm də beynəlxalq təsisatlar, xüsusən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

# Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında videomüraciət formatında çıxış edəcək



Sentyabrın 14-də BMT Baş Assambleyasının (BA) növbəti, 76-cı sessiyası öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Maldiv adalarının xarici işlər naziri Abdulla Şahid BMT BA-nın 76-cı sessiyasının prezidenti seçilib. Bununla da BMT BA-nın 75-ci sessiyasının prezidenti Volkan Bozkırın (Türkiyə) səlahiyyətləri başa çatıb.

Ardı 2-ci səh.

# Türkiyə lideri BMT Baş Assambleyasının sessiyasında bir daha Azərbaycanın haqq işinə dəstək verdi

## *Rəcəb Tayyib ƏRDOĞAN:* “Azərbaycan qanuni müdafiə haqqından istifadə edib”



Qafqazda sülh və sabitlik baxımından yaxın müddətdə önəmli addımlar atıldığını xatırladan Ərdoğan deyib ki, “Azərbaycan qanuni müdafiə haqqından istifadə edərək, BMT-nin Təhlükəsizlik Şurasının tətbiq olunmayan qərarlarını həyata keçirməklə öz torpaqlarının işğalına son qoyub. Bu hadisə regionda daimi sülhün bərpasına fürsət pəncərələrinin açılmasına da imkan yaradıb. Türkiyə tərəflərin atacağı hər müsbət addımı dəstəkləmək qərarındadır”.

Bax: səh. 3

# ASAN dəstək, şəffaf xidmət

## Prezident İlham Əliyevin 5 il öncə Masallıda açılışını etdiyi “ASAN Həyat” kompleksi cənub bölgəsində vətəndaşlara nümunəvi xidmətin əsas ünvanıdır

Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 3-də Salyan, Biləsuvar və Masallı rayonlarına səfəri zamanı açılışında iştirak etdiyi obyektlərdən biri də Masallı “ASAN Həyat” kompleksi idi.

Şəhərin Heydər Əliyev prospektində yerləşən kompleks respublikamızın cənub zonasının möhtəşəmliyi ilə seçilən yeni ünvanlarından biridir. 4 mərtəbəli inzibati binadan və ictimai iaşə obyektləri üçün nəzərdə tutulan binalardan ibarət olan kompleksin ərazisində “ASAN xidmət” mərkəzi, “ABAD” mərkəzi, ABAD etnobutik, Kinoklub, İncəsənət mərkəzi, “ASAN İntellektual” inkişaf mərkəzi, “ASAN kafe” fəaliyyət göstərir.

### İndiyədək “ASAN xidmət”ə 47 milyona yaxın müraciət daxil olub

Öncə xatırladaq ki, hazırda respublikamızda 21 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Bakıda daha 1 “ASAN xidmət” və 1 “ASAN Kommunal” mərkəzinin açılışı planlaşdırılır. Həmçinin Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri inşa olunur.

Ardı 4-cü səh.

# “Equinor” Azərbaycanla əməkdaşlığını daha da dərinləşdirmək niyyətindədir

## Bunu şirkətin Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri də vurğulayıb

Norveçin enerji şirkəti “Equinor”un Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri təyin olunub. Stiq Otland (Stig Aatland) öz yeni vəzifəsinin icrasına bu ilin sentyabr ayından etibarən “Equinor”un Bakıdakı ofisində başlayacaq. Stiq bu vəzifədə şirkətin Azərbaycandakı fəaliyyətinə 2017-ci ildən rəhbərlik edən Favad Quraişini əvəz edəcək.

Bax: səh. 6

# Sumqayıt keçmiş statusunu çoxdan dəyişib

## İndi şəhərdə ekoloji cəhətdən təmiz, müasir sənaye müəssisələri fəaliyyət göstərir

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi kurs 18 ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir. Şəhər və rayonlarımızda bunun nəticələrini aydın görmək olur. Bu sırada Sumqayıtın da xüsusi yeri var. 72 il əvvəl təvəllüd tapmış şəhərimiz bu illər ərzində böyük inkişaf yolu keçmiş və Cənubi Qafqazın sənaye mərkəzlərindən birinə çevrilmişdir.

Bax: səh. 6

# “Bizim dövlətimiz yoxdur. Müstəqilliyimiz yoxdur. Şərəfimiz yoxdur”

## Bu, Serj Sarkisyanın müavini Armen Aşotyanın həmvətənlərinə “bayram” təbrikidir

Böyük problemlər içərisində boğulmaqda davam edən, üzləşdiyi sosial-iqtisadi çətinliklərin əlində aciz qalan Ermənistanda siyasi vəziyyət özünün gərgin mərhələsinə qədəm qoymaqdadır.

Hazırda əhalinin hakimiyyətdən narazılığının artmasından yararlanmağa çalışan müəyyən qüvvələr iqtidar əleyhinə təbliğatı gücləndirməyə cəhd göstərirlər. Maraqlıdır ki, bu durumda hakimiyyət daxilində müxtəlif məmur-oliqarxlar arasında da savaş güclənir və indiki halda bu, keçmiş iqtidar təmsilçilərinin lehinə işləyən məqamlardan hesab olunur.

Bu günlər Ermənistanda de-fakto mövcud olmayan müstəqilliyin 30 illiyi qeyd edildi. Hakimiyyət həmin günü əvvəlcə təntənə ilə qeyd etməyə hazırlaşırdı, amma etirazları və iradları nəzərə alaraq pafoslu tədbirlərdən çəkindi.

Ardı 8-ci səh.

# Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında videomüraciət formatında çıxış edəcək

Əvvəli 1-ci səh.

Ənənəvi olaraq, sessiya çərçivəsində yüksəksəviyyəli ümumi müzakirələr keçiriləcək. Dövlət və hökumət başçılarının iştirakı nəzərdə tutulan ümumi müzakirələr sentyabrın 21-dən başlayıb və sentyabrın 27-dək davam edəcək.

Müzakirələrin əvvəlində BMT-nin Baş katibi Antonio Quterreş illik hesabatını təqdim edib. Hesabatda beynəlxalq sülh və təhlükəsizliyin qorunması, dayanıqlı inkişaf, insan hüquqlarının müdafiəsi və təşviqi, həmçinin digər önəmli məsələlərə toxunulur.

Pandemiya ilə əlaqədar bu il ümumi müzakirələr seqmentinin hibrid formada, yəni həm fiziki iştirak, həm də virtual (videomüraciət) formada olması nəzərdə tutulub. Builki ümumi müzakirələrin mövzusu belədir: "Ümid vasitəsilə müqavimətin gücləndirilməsi: COVID-19-dan sonra bərpa, dayanıqlığın yenidən qurulması, planetin ehtiyaclarının cavablandırılması, insan hüquqlarına hörmət və BMT-nin canlandırılması".

Ümumi müzakirələr BMT BA-nın ən önəmli seqmentlərindən biridir. Belə ki, qlobal platforma olan BMT BA-nın bu mötəbər kürsüsündən dövlət və hökumət başçıları istər milli, istərsə də beynəlxalq gündəmdə duran məsələlərə bağlı öz baxışlarını, dövlətlərinin siyasətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırırlar.

Müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ABŞ Prezidenti Cozef Baydenin, Çin Xalq Respublikasının Sədri Si Cinpinin və bir çox digər dövlət və hökumət başçılarının çıxışları gözlənilir. Bu il müzakirələr zamanı dövlət və hökumət başçıları tərəfindən əsasən COVID-19 pandemiyası, beynəlxalq sülh və təhlükəsizlik, Əfqanıstanda vəziyyət, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və digər önəmli məsələlərə toxunulacağı gözlənilir.

Ümumi müzakirələr çərçivəsində sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciət formatında çıxışı nəzərdə tutulub. BMT BA-nın builki ümumi müzakirələri ölkəmiz üçün xüsusi önəm kəsb edir. Belə ki, Azərbaycanın Vətən müharibəsində şanlı Qələbəsindən sonra Prezident İlham Əliyev dünya ictimaiyyətinə Müzəffər Ali Baş Komandan kimi müraciət edəcək, qalib Azərbaycan xalqını təmsil edəcək.

# İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri üzrə" İşçi Qrupunun iclası keçirilib



Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri" İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı 2020-ci ilin 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının 16 sentyabr tarixli iclasından irəli gələn vəzifə və tapşırıqların İşçi Qrup tərəfindən icrası ilə bağlı məsələlər müzakirə olunub.

İşçi Qrupunun ötən iclasından keçən müddət ərzində müvafiq ərazilərimizdə enerji təyinatlı infrastrukturun bərpasından irəli gələn tədbirlərin icrası, qəbul edilmiş qərarların həyata keçirilməsi üzrə görülmüş işlər nəzərdən keçirilib və növbəti addımlar müəyyənləşdirilib. İşçi Qrupunun üzvləri tərəfindən ötürücü və paylayıcı elektrik veriliş xətlərinin çəkilməsi, müvafiq yarımstansiyaların qurulması, müəyyən ərazilərdə qaz nəqli sisteminin layihələndirilməsi, istilik təchizatı və s. kimi istiqamətlərdə təqdim edilən məlumatlar dinlənilib, suallar cavablandırılıb.

Şuşa şəhərində strateji obyektlərin elektrik və istilik təminatına dair müzakirələr aparılıb. Elektrik enerjisi infrastrukturunun qurulması istiqamətində görülmüş işlər diqqətə çatdırılıb, elektrik yarımstansiyalarının inşasının davam etdirildiyi vurğulanıb. İstilik təchizatı sisteminin əsasını təşkil edən qazanxanaların əksəriyyətinin elektrik enerjisi ilə işləyəcəyi nəzərə alınmaqla infrastruktur layihələri içərisində elektrik enerjisi ilə təminatın xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunub. Cari ilin 19 sentyabr tarixində Şuşa şəhərində strateji obyektlərin elektrik enerjisi ilə təminatı və istilik təchizatı ilə bağlı görülən işlərə yerində baxış keçirildiyi bildirilib və monitorinqin nəticələri barədə təqdimat nümayiş etdirilib, məhəllədaxili və binadaxili istilik sistemləri üzrə görülmüş işlərlə bağlı məlumat verilib.

Cəbrayıl rayonu ərazisindəki Araz çayının su və energetika ehtiyatlarının Azərbaycan və İran tərəfindən birgə istifadəsinə imkan verəcək "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi üzrə görülən işlər və stansiyaların gələcək istismarına dair məsələlər nəzərdən keçirilib.

İşçi Qrupunun fəaliyyətindən irəli gələn digər cari məsələlər barədə fikir mübadiləsi aparılıb, işçi qruplar arasında koordinasiyanın effektivliyinin artırılması və zərurət yarandıqda birgə iclasların keçirilməsi praktikasına üstünlük verilməsi tövsiyə olunub.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan Respublikası Prezidentinin "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2006-cı il 22 dekabr tarixli 498 nömrəli, "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli, "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 24 avqust tarixli 235 nömrəli, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli, "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 411 nömrəli və "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 30 iyun tarixli 1077 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 dekabr tarixli 239-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1235 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 498 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1045; 2017, № 12 ( I kitab), maddə 2281; 2018, № 6, maddə 1223) 2-ci hissəsində "Fonduna" sözü "Fondunun hesablarına" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644; 2019, № 1, maddə 73; 2021, № 5, maddə 448) ilə təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın 3.1.3-cü yarımbəndində "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685; 2019, № 2, maddə 212) ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın 4.3.5-ci yarımbəndində "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin.

4. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyun tarixli 1364 nömrəli və 17 iyun tarixli 1368 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"6.4. dövlət sosial müdafiə fondunun büdcəsi;";

4.2. 8.5-ci bənddə "Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2568; 2019, № 11, maddə 1698) ilə təsdiq edilmiş "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nın 3.5.3-cü yarımbəndində hər iki halda "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun" sözləri "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1357 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1.2-ci və 3.2.2-ci yarımbəndlərdə "Fondun" sözü "dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

6.2. 3.1.3-cü yarımbənddə "Fondun növbəti il üçün" sözləri "növbəti il üçün dövlət sosial müdafiə fondunun" sözləri ilə əvəz edilsin;

6.3. 4.5.14-cü yarımbəndə "habelə" sözündən sonra "dövlət sosial müdafiə fondunun" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

# Ceyhun BAYRAMOV: "GUAM-a üzv dövlətləri minaların insan hüquqlarına təsiri ilə bağlı bəyanata qoşulmağa çağırırıq"

Sentyabrın 22-də GUAM Xarici İşlər Nazirləri Şurasının 37-ci iclası keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov bu tədbirin GUAM Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 2020-ci ildə COVID-19 pandemiyası ilə bağlı qapanmadan sonra ilk canlı toplantısı olduğunu deyib.

Qeyd edib ki, iclasda birgə fəaliyyətin artırılması üçün imkanlar nəzərdən keçirilir. Regional təşkilat olan GUAM dayanıqlı sülhün və inkişafın təmin edilməsi üçün əhəmiyyətli platformadır. Əməkdaşlığımız paylaşılan öhdəliyə və beynəlxalq hüququn hamılıqla tanınmış qaydalarına və prinsiplərinə, qarşılıqlı etimada və bir-birinin maraqlarına hörmətə əsaslanır. Bunlar ticarət və iqtisadi əməkdaşlıq, həmçinin insanlar arasında mübadilə də daxil olmaqla, geniş sahələrdə əhəmiyyətli nailiyyətləri qeyd etməyə imkan verir.

Gürcüstanın təşkilata sədrliyi dövründə əməkdaşlığın əlaqələndirilmiş, fəaliyyətyönümlü və irəli baxan bir şəkildə daha da inkişaf etdirilməsi üçün ciddi səylərin göstərildiyini vurğulayan C.Bayramov quruma üzv ölkələr arasında əməkdaşlığın fəaliyyətlərin layihəyönümlü istiqamətini gücləndirməklə daha da inkişaf edə biləcəyini diqqətə çatdırıb. Deyib ki, ilk növbədə, ticarət, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları (İKT), turizm kimi sahələrdə birgə iqtisadi layihələrə diqqət ayırmaq lazımdır, çünki bu sahələr pandemiyadan sonrakı dövrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacaq.

Sahəvi əməkdaşlığa toxunan nazir "Malların mənşə ölkəsini təyin edən qaydalar haqqında Protokol"un və GUAM Konsulluq Konvensiyasının imzalanması üçün lazımi daxili prosedurların tamamlanmaqda olduğunu bildirib.

Qeyd edib ki, Azərbaycan həm regional, həm də bölgələrarası səviyyədə sülhün, təhlükəsizliyin, sabitliyin və rifahın təmin edilməsinə yönəlmiş "GUAM+" formatı çərçivəsində genişləndirilmiş əməkdaşlığın güclü tərəfdarı olaraq qalır. Azərbaycan bu gün imzalanması planlaşdırılan, lakin təəssüf ki, Xarici İşlər Nazirləri Şurasının növbəti iclasına təxirə salınan GUAM-İsrail Birgə Bəyannaməsini alqışlayır. Tərəfdaşlarımızla güclü əlaqələrimiz var, lakin digər tərəfdaşlarla əməkdaşlıq gündəmlərini yenidən nəzərdən keçirmək və işimizi ümumi prioritetlər əsasında tərtib etmək baxımından bütün tərəfdaşlarımızla əməkdaşlığı gücləndirmək üçün əlavə səylərə ehtiyac var.

"GUAM Parlament Assambleyasının 13-cü sessiyasının kommünikesi beynəlxalq və regional parlamentlərarası assosiasiyalar ilə əməkdaşlığı davam etdirməklə bağlı niyyəti bir daha təsdiqləyir. Bu xüsusda, GUAM PA digər dövlətlərlə ikitərəfli və çoxtərəfli səviyyədə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsini milli parlamentlər arasında dialoqu gücləndirmək, onların şəbəkələrini dərinləşdirmək və etimad mühiti yaratmaq vasitəsi olaraq nəzərdən keçirə bilər", - deyən Azərbaycanın xarici işlər naziri diqqətə çatdırıb ki, ümumi maraq kəsb edən sahələrdə BMT təşkilatları ilə sıx əməkdaşlığın qurulması dayanıqlılığı təmin etmək üçün milli səyləri gücləndirəcək və ölkələrimizin çağırışlara daha yaxşı cavab verməyə hazırlığını təmin edəcək. Bu baxımdan layihələrin müvafiq beynəlxalq və regional təşkilatlarla birgə həyata keçirilməsinə daha çox diqqət yetirilməlidir.

Beynəlxalq təşkilatlar çərçivəsində maraqlarımızın irəlilədilməsində fəal əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini bildirən Ceyhun Bayramov deyib: "Əldə etdiyimiz müsbət təcrübəyə əsaslanmalıyıq. Bu baxımdan, GUAM-a üzv dövlətləri Azərbaycanın irəli sürdüyü minaların insan hüquqlarına təsiri ilə bağlı bəyanata qoşulmağa və bununla bağlı Cenevrədəki daimi nümayəndəliklərinə təlimat verməyə dəvət edirik. Birgə Bəyanat Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 48-ci sessiyasının gündəliyinin 4-cü bəndi çərçivəsində sentyabrın 24-də həmfikir ölkələr adından veriləcək".

Qarabağ münaqişənin həllinin Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşması ilə regional əməkdaşlıq, inkişaf və rifah üçün yeni imkanlar açdığını vurğulayan nazir deyib ki, 2020-ci il 10 noyabr tarixli Birgə Bəyanat xüsusilə bölgədə kommunikasiyaların açılmasını nəzərdə tutan 2021-ci il 11 yanvar tarixli üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan bəyanatı ilə tamamlandı. Azərbaycan, Ermənistan və Rusiya bölgədə nəqliyyat kommunikasiyalarının açılması üçün konkret istiqamətlər üzərində işləməyə başladılar. Əlaqələrin yenidən canlandırılması Ermənistan və Azərbaycan ərazilərindən ticarət və nəqliyyatı əhəmiyyətli dərəcədə sürətləndirəcək ki, bu, həm bu ölkələrə, həm də tərəfdaşlarımıza fayda verəcək. Bu, əlaqələrin normallaşmasının əhəmiyyətli bir amili olacaq, bölgədə və ondan kənarda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün şəraitin yaradılmasında müsbət rol oynayacaq.

Azərbaycanın xarici işlər naziri həmçinin qeyd edib: "Kommunikasiyaların açılması məsələsi ilə məşğul olan üçtərəfli işçi qrupu bölgədə konkret istiqamətlər üzərində işə başladı. Kommunikasiyaların açılmasının mühüm və mümkün bir irəliləyiş ola biləcəyinə baxmayaraq, Ermənistan danışıqları əngəlləmək və gecikdirmək taktikasına əl ataraq irəliləyişin qarşısını almağa cəhd edir. Biz konstruktiv olaraq prosesdə iştirak edirik və məsələ ilə məşğul olmaqda davam edirik. Aydındır ki, kommunikasiyaların yenidən canlandırılması həm bu ölkələrin, həm də tərəfdaşlarımızın xeyrinə Ermənistan və Azərbaycan ərazilərindən ticarət və nəqliyyatı əhəmiyyətli dərəcədə artıracaq.

Azərbaycanın azad edilmiş ərazilərində bərpa, yenidənqurma və reinteqrasiya işləri sürətlə gedir. Münaqişədən sonrakı yenidənqurma anlayışımız xalqımızın ehtiyaclarına və prioritetlərinə əsaslanır. Məcburi köçkünlərin ləyaqətli yaşayışı üçün lazım olan siyasi, hüquqi, iqtisadi və sosial şəraitin təmin edilməsi əsas prioritetlərimizdəndir. Azərbaycan etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları ilə eyni hüquq və azadlıqları təmin edərək münaqişədən təsirlənmiş ərazilərdə yaşayan erməni əsilli vətəndaşlarını yenidən öz siyasi, sosial və iqtisadi məkanına reinteqrasiya etmək əzmindədir".

Azad edilmiş ərazilərin mina ilə kütləvi çirklənməsinin Azərbaycan hökumətinin başladığı genişmiqyaslı bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi şəkildə mane olduğunu deyən nazir bildirib ki, ən əsası, bu, yüz minlərlə məcburi köçkünün öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri dönmək hüququnun həyata keçirilməsinə mənfi təsir göstərir.

"Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət Ermənistana revanşist yanaşmalardan əl çəkmək üçün təzyiq göstərməlidir ki, Ermənistan bunun əvəzinə davamlı sülh və inkişaf üçün unikal imkandan istifadə etsin. Üçtərəfli bəyanatların tam şəkildə həyata keçirilməsinin, müharibənin bütün nəticələrini aradan qaldırmaq və bölgədəki bütün ölkələr və onların xalqları üçün firavan bir gələcək qurmaq yolunda alternativi yoxdur", - deyə nazir əlavə edib.

O, eyni zamanda, vurğulayıb ki, beynəlxalq hüququn tətbiqi sülh, təhlükəsizlik və inkişaf üçün əsas şərtdir. Təəssüf ki, GUAM-a üzv dövlətlərin ərazilərində həlli uzanmış münaqişələr sülh və təhlükəsizliyə təhdid yaratmağa davam edir. Bu münaqişələr suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməlidir".

# "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 897, № 12 (I kitab), maddə 2592; 2019, № 12, maddə 1923) 3.2-ci bəndində "2020-ci" sözləri "2022-ci" sözləri ilə, "2023-cü" sözləri isə "2025-ci" sözləri ilə əvəz edilsin.

2. Bu Fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2021-ci il*

# Azərbaycan XİN rəhbəri ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini ilə görüşüb



Sentyabrın 21-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Amerika Birləşmiş Ştatlarının dövlət katibinin siyasi məsələlər üzrə müavini Viktoriya Nuland ilə görüşüb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında ümumi fikir mübadiləsi aparıblar. ABŞ rəsmisi beynəlxalq sülh və təhlükəsizlik məsələlərində Azərbaycan ilə əməkdaşlığı, o cümlədən Azərbaycan sülhməramlılarının Əfqanıstanda fəaliyyətini yüksək dəyərləndirib.

Tərəflər bölgədəki cari təhlükəsiz vəziyyət, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrası ilə əlaqədar məsələlər üzrə fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən bu xüsusda konstruktiv addımların atıldığını, Ermənistan tərəfindən isə buna qarşılığın verilmədiyini qeyd edib.

Bölgənin sülh şəraitində gələcək inkişafı üçün kommunikasiyaların açılışının və dövlət sərhədlərinin delimitasiyasının vacibliyi vurğulanıb.

Görüşdə tərəflər habelə ikitərəfli əməkdaşlıq gündəliyi üzrə, o cümlədən iqtisadi, energetika, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın inkişafı məsələlərini müzakirə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Bakıda "Azərbaycan-Türkiyə-İran üçtərəfli münasibətləri" adlı konfrans olub

Sentyabrın 22-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Bakıda "Azərbaycan-Türkiyə-İran üçtərəfli münasibətləri" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda İranın xarici işlər nazirinin müavini, Beynəlxalq və Siyasi Araşdırmalar Mərkəzinin direktoru Məhəmməd Kazım Səccadpurun və Türkiyədən İran Araşdırmaları Mərkəzinin direktoru Haqqı Uyğurun rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak edib.

Tədbirdə çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, hər iki mərkəzdən olan nümayəndə heyətləri mərkəzin dəvəti ilə Azərbaycana gəlib. Onun sözlərinə görə, uzun müddətdir planlaşdırılan bu konfrans pandemiya səbəbindən bir neçə dəfə təxirə salınıb. Fərid Şəfiyev bildirib ki, məhz düşüncə mərkəzləri hər hansı, o cümlədən problemli məsələlərin müzakirəsi üçün məqsədəuyğun platformadır. "Tədbiri keçirməkdə məqsədimiz İkinci Qarabağ müharibəsindən sonra yaranmış geosiyasi vəziyyəti, regionda formalaşmış yeni əməkdaşlıq potensialını, o cümlədən nəqliyyat və digər layihələri müzakirə etməkdir. Müharibədən sonra Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 3+3 regional əməkdaşlıq platforması təklif olunub. Çox güman ki, yaxın vaxtlarda altı ölkənin bir araya gəlməsi çətin məsələdir. Azərbaycanla Ermənistan arasında münasibətlər düzəlməyib və Azərbaycan tərəfinin postmünaqişə dövrü ilə bağlı təklifləri qəbul edilməyib. İndiki mərhələdə üçtərəfli formatla müzakirələrin keçirilməsi məhz platformanın genişləndirilməsi hədəfinə xidmət edir", - deyə Fərid Şəfiyev qeyd edib.

Daha sonra çıxış edən İranın xarici işlər nazirinin müavini, Beynəlxalq və Siyasi Araşdırmalar Mərkəzinin direktoru Məhəmməd Kazım Səccadpur Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə təbriklərini çatdırıb və bildirib ki nəticədə yaranmış yeni reallıq tək milli deyil, həm də regional məsələdir. İran nümayəndəsinin sözlərinə görə, ölkəsinin Azərbaycan və Türkiyə ilə ayrılıqda yaxşı ikitərəfli əlaqələri mövcuddur. M.K.Səccadpur əlavə edib ki, hazırda əsas məqsəd ikitərəfli əlaqələri səmərəli şəkildə üçtərəfliyə çevirməyin yollarını tədqiq etməkdir. İran nümayəndəsi ölkələr arasındakı münasibətlərdə yeni imkanların araşdırılması baxımından beyin mərkəzlərinin rolunu da xüsusi vurğulayıb.

Türkiyənin İran Araşdırmaları Mərkəzinin direktoru Haqqı Uyğur çıxışı zamanı qeyd edib ki, Azərbaycan, İran, Türkiyə tarix və mədəniyyət baxımından ortaq dəyərlərə malikdir. O bildirib ki, hər üç region ölkəsi zamanla ortaq təhdidlər və çağırışlarla üzləşir. Onun sözlərinə görə, bu kimi görüşlər regiondakı siyasi proseslərin təhlili üçün əlverişli imkan yaradır. Haqqı Uyğur görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin, Əfqanıstan məsələsinin də müzakirə ediləcəyini deyib. Onun sözlərinə görə, həmçinin ortaq ticarət məsələlərinə dair fikir mübadiləsi aparılacaq və yekunda hesabat hazırlanacaq.

Daha sonra tədbir qapalı şəkildə davam etdirilib.

Nümayəndə heyətinin sabah Ağdam şəhərinə səfər etməsi nəzərdə tutulub.

# Azad olunan ərazilərdə bölmələrimizin hərtərəfli mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Türkiyənin hərbi istehkamçıları ilə birgə azad olunan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir. Dağlıq ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni təminat yollarının çəkilməsi üzrə mühəndis işləri aparılır.

Azad edilmiş ərazilərimizdə dislokasiya olunan Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyində olan ASFAT AŞ şirkəti tərəfindən istehsal edilən "MEMATT" (Mexanik Mina Təmizləmə Təchizatı) texnikalar verilib. Bu texnikalar yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinə cəlb edilib.

İşğaldan azad olunan ərazilərdə bugünədək mühəndis-istehkam bölmələri tərəfindən 11 min 900 hektardan çox ərazi minalardan təmizlənib. Ümumilikdə 16 mindən çox mina və partlamamış döyüş sursatı utilizasiya olunub.

Hazırda azad olunan ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

# Milli Məclisdə idmançılar və Vətən müharibəsində iştirak etmiş gənclərlə görüş keçirilib

Sentyabrın 22-də Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edən idmançılar Nəriman Abbasov, Rəsul Çunayev, məşqçi Şəhriyar Abbasov, habelə Vətən müharibəsinin iştirakçısı olmuş və fəal gənclərlə görüş keçirib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Adil Əliyev görüş iştirakçılarını salamlayaraq onlarla Milli Məclisdə görüşməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilməsi nəticəsində hər il ölkəmizin gənclərinin istər elmi, istərsə də idman olimpiadalarında qazandıqları uğurlar hər kəsi gürurlandırır. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə ölkəmizə rəhbərlik etdiyi dönəmdə ilk dəfə olaraq gənclər və idman sahəsinə xüsusi diqqət yetirilib. Bu gün də ölkəmizdə idmanın inkişaf perspektivləri diqqət mərkəzində saxlanılır, idmanda kütləvilik təmin edilir.

1991-1993-cü illərdə dövlət idarəetməsində səriştəsiz rəhbərlərin atdığı addımlar nəticəsində bütün sahələrdə ölkəmiz ciddi böhranla üzləşdi, həmin dövrdə hakimiyyətdəkilərin apardıqları ciddi siyasi intriqaların, xəyanətlərin nəticəsində ərazilərimizin 20 faizi işğal edildi. Xalqımızın ən ağır günündə Ulu Öndərin 1993-cü ilin iyunun 15-də hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə tərəqqi başladı. Heydər Əliyevin gənclər və idman sahəsini daim diqqət mərkəzində saxlaması bu sahənin yenidən dirçəlməsi ilə nəticələndi. Hər zaman özü qədər inandığı İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinə prezident təyin edilməsi idman sahəsinin daha dinamik, hərtərəfli inkişafını təmin etdi.

Qeyd olunub ki, bu gün ölkəmizdə sağlam Azərbaycan gəncliyinin formalaşması Prezident İlham Əliyevin yürütdüyü siyasətin uğurlu nəticəsidir. Məhz bu gəncliyimizin təmsil olunduğu Şanlı Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından həmişəlik azad edərək bizə tarixi qələbəni yaşadıb.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində və qazanılmış tarixi Qələbədə Azərbaycan gəncliyinin xüsusi rolu olub. Gənclərimiz həm döyüş meydanında şücaət göstərib, həm də erməni təcavüzünün dünyaya çatdırılmasında üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəliblər. İdmançılarımız bundan sonra da qazandıqları qələbələrin, göstərdikləri yüksək nəticələrin davamlı olması üçün səylərini davam etdirməlidirlər. Təqdirəlayiqdir ki, bu gün ölkəmiz beynəlxalq yarışların yüksək səviyyədə təşkilatçılığı sahəsində dünyada idman brendi olaraq tanınır. Ölkəmizdə idmanla məşğul olmaq istəyənlər üçün geniş imkanlar var.

Səmimi görüşə görə təşəkkürlərini bildirən iştirakçılar bu tədbiri həm də təmsil etdikləri sahələrə göstərilən diqqətin nümunəsi kimi dəyərləndiriblər. Söhbət zamanı gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsində hər bir gəncin, hər bir idmançının səfərbər olmasının vacibliyi vurğulanıb.

Adil Əliyev idmançı Nəriman Abbasovun qazandığı qələbənin digər idmançılarımız üçün də stimul olacağını və onların da beynəlxalq yarışlarda hər zaman uğurla iştirak edəcəklərinə əminliyini bildirib.

Sonda iştirakçılara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanları təqdim edilib.

# Türkiyə lideri BMT Baş Assambleyasının sessiyasında bir daha Azərbaycanın haqq işinə dəstək verdi

## *Rəcəb Tayyib ƏRDOĞAN:* "Azərbaycan qanuni müdafiə haqqından istifadə edib"





Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden qeyd edib ki, ABŞ müttəfiqlərini müdafiə etməkdə davam edəcək, amma hərbi güc "son vasitə" olacaq. Bu barədə o, BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində ümumi müzakirələrdə çıxışı zamanı bildirib.

"Şübhə etməyə bilərsiniz: Birləşmiş Ştatlar hücum halında, o cümlədən terror təhlükəsindən qorunmaqda özünü, müttəfiqlərini və maraqlarını müdafiə etməyə davam edəcək", - deyə Bayden vurğulayıb və əlavə edib: "Bu missiya dəqiq və əldə edilə bilən olmalıdır, Amerika xalqının razılığı, mümkün olduqda, müttəfiqlərlə birgə həyata keçirilməlidir. ABŞ-ın hərbi gücü bizim ilk yox, sonuncu vasitəmiz olmalıdır və bütün dünyada gördüyümüz hər bir problem üçün cavab kimi istifadə edilməməlidir".

Bununla belə, Amerika liderinin fikrincə, hazırda bir çox böyük problemləri silah gücü ilə həll etmək olmaz: "Bombalar və güllə bəşəriyyəti COVID-19 və ya onun gələcək variantlarından müdafiə edə bilməz. Bu virusa qarşı mübarizə aparmaq üçün bizə elmin və siyasi iradənin kollektiv vəhdəti lazımdır. İndi biz peyvəndləri mümkün qədər tez almaq və bütün dünyada həyatı qorumaq məqsədilə testlərə və müalicəyə əlçatanlığı genişləndirmək üçün hərəkət etməliyik".

Prezident Rəcəb Tayyib Ərdoğan da BMT-nin Baş Assambleyasındakı çıxışında dünya miqyasında mövcud problemlərə toxunub. O, dünya ictimaiyyətinə müraciətində deyib: "On milyonlarla insanın virusun pəncəsində olduğu bir vaxtda peyvənd milliyətçiliyinin hələ də davam etdirilməsi insanlıq üçün biabırçılıqdır. Koronavirus pandemiyası səbəbindən 4,6 milyon insan dünyasını dəyişib". Qardaş ölkənin lideri deyib ki, Türkiyə bir tərəfdən vətəndaşlarına ən yaxşı sağlamlıq xidməti göstərərkən 159 ölkəyə və 12 beynəlxalq təşkilata tibbi yardım göndərib.

Ərdoğan Əfqanıstan məsələsinə toxunarkən ümidvar olduğunu bildirib ki, ölkədə ən qısa zamanda sülh, sabitlik və təhlükəsizlik qurulacaq və Əfqanıstan xalqı sülhə qovuşacaq. Türkiyə olaraq bu çətin günlərdə Əfqanıstan xalqına qarşı qardaşlıq borcumuzu yerinə yetirməyə davam edəcəyik.

Yüz minlərlə insanın ölümünə və milyonların ölkəni tərk etməsinə səbəb olan Suriyadakı humanitar faciənin bütün dünyanın gözü qarşısında 10-cu ilini geridə qoyduğuna diqqət çəkən Ərdoğan Türkiyənin bir tərəfdən 4 milyon suriyalıya qucaq açarkən, bölgədə qan və gözyaşı axıdan terror təşkilatlarına qarşı da mübarizə apardığını dilə gətirib.

"Beynəlxalq birlik Suriya böhranının daha 10 il davam etməsinə icazə verə bilməz", - deyən dövlət başçısı problemə Suriya xalqının gözləntilərinə cavab verəcək şəkildə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsinə əsaslanaraq siyasi həll yolu tapmaq üçün daha güclü iradənin ortaya qoyulmasının vacibliyini vurğulayıb.

Türkiyə lideri Kipr məsələsinin ədalətli, daimi və davamlı həllinin yalnız nəticə yönümlü və realist bir yanaşma ilə mümkün ola biləcəyini də vurğulayıb. Qafqazda sülh və sabitlik baxımından yaxın müddətdə önəmli addımlar atıldığını xatırladan Ərdoğan deyib ki, "Azərbaycan qanuni müdafiə haqqından istifadə edərək, BMT-nin Təhlükəsizlik Şurasının tətbiq olunmayan qərarlarını həyata keçirməklə öz torpaqlarının işğalına son qoyub. Bu hadisə regionda daimi sülhün bərpasına fürsət pəncərələrinin açılmasına da imkan yaradıb. Türkiyə tərəflərin atacağı hər müsbət addımı dəstəkləmək qərarındadır".

Ərdoğan həmçinin "Biz, ilhaqını tanımadığımız Krım da daxil olmaqla, Ukraynanın ərazi bütövlüyünün və suverenliyinin qorunmasına əhəmiyyət veririk" deyə bildirib. Müsəlman uyğur türklərinin əsas hüquqlarının Çinin ərazi bütövlüyü baxımından qorunması üçün daha çox səy göstərilməli olduğuna inandıqlarını ifadə edən Ərdoğan 74 illik Kəşmir probleminin tərəflər arasında dialoq yolu ilə və BMT-nin müvafiq qətnamələri çərçivəsində həll edilməsinə tərəfdar olduğunu da söyləyib.

Müraciətində iqlim dəyişikliyi ilə əlaqədar hər fürsətdə dediyimiz "Dünya 5-dən daha böyükdür " ifadəsini bir daha dilə gətirən Ərdoğan bildirib: "Dünyaya ən çox ziyan vuranlar, təbii sərvətləri vəhşicəsinə istismar edənlər, iqlim dəyişikliyi ilə mübarizəyə ən böyük töhfəni verməlidir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Milli Məclisdə işğaldan azad olmuş ərazilərdə tarixi adların bərpası ilə bağlı təkliflər səsləndirilib

Sentyabrın 22-də Milli Məclisin Regional məsələlər komitəsinin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Siyavuş Novruzov müzakirəyə Regional məsələlər komitəsinin ötən yaz və növbədənkənar sessiyalar dövründə fəaliyyətinə dair hesabat və qarşıdakı payız sessiyası üçün iş planı layihələrinin çıxarıldığını deyib.

Qeyd olunub ki, Milli Məclisin 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Regional məsələlər komitəsi 6 iclas keçirib. İclaslarda 16 məsələyə baxılıb, o cümlədən 14 qanun layihəsi müzakirələrdən keçərək Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Hesabat dövründə komitədə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Monitorinq Komitəsi ilə "Azərbaycanda yerli və regional idarəetmə ilə bağlı son islahatlar, inkişaflar və problemlər" mövzusunda müzakirələr aparılıb, həmçinin "Azərbaycanda yerli özünüidarəetmənin inkişaf perspektivləri: mövcud vəziyyət və qarşıdakı vəzifələr", "Heydər Əliyev və Qüdrətli Azərbaycan", "Müstəqilliyimiz əbədidir, daimidir və dönməzdir" mövzularında onlayn konfranslar və digər tədbirlər keçirilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitənin ünvanına və komitə üzvlərinə ümumilikdə 4699 müraciət daxil olub və onlarda qaldırılan məsələlərin böyük əksəriyyəti öz həllini tapıb. Həmçinin Regional məsələlər komitəsinin üzvləri sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində ölkənin aktual məsələləri ilə bağlı çoxsaylı çıxışlar ediblər, müxtəlif tədbirlərə, eləcə də təmsil olunduqları beynəlxalq təşkilatların və parlament dostluq qruplarının iclaslarına qatılıblar, seçildikləri ərazilərdə cəmiyyətin həssas qrupları, xüsusən də şəhid ailələrinin, qazilərin problemləri ilə yaxından maraqlanıblar.

Siyavuş Novruzov iş planı ilə bağlı bildirib ki, qarşıdakı sessiya ərzində qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan qanun layihələrinin müzakirəsi, mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində qanunlara dəyişikliklərin edilməsi, həmçinin aidiyyəti qurumlarla, yerli idarəetmə orqanları ilə dinləmələrin keçirilməsi kimi məsələlər nəzərdə tutulub.

İclasda komitə üzvləri Nizami Cəfərov, Səbinə Xasayeva, Aqil Məmmədov, Kamran Bayramov, Tahir Rzayev, həmçinin Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış edərək gündəliyə dair fikirlərini bildiriblər, işğaldan azad olmuş ərazilərdə tarixi adların bərpası, bələdiyyələrin işinin təşkili və digər məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

Onlayn tədbirdə Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayev, deputatlar Məzahir Əfəndiyev, Emin Hacıyev, Malik Həsənov, Səttar Möhbalıyev, Cavid Osmanov və Əliabbas Salahzadə iştirak ediblər.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellailə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri ölkələrimiz arasındakı əlaqələrdən bəhs edib, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşadığını bildirib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni texnologiyaların tətbiqi və internet təminatı, eləcə də ərzaq və enerji təhlükəsizliyi sahəsində görülən işləri diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Argentina arasında əlaqələrin, xüsusilə də universitetlərarası əməkdaşlığın inkişafı üçün potensialın olduğunu vurğulayıb.

Göstərilən diqqətə və səmimi münasibətə görə minnətdarlıq edən Serxio Osvaldo Perez Qunella Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib. Muxtar respublikaya səfərinin əhəmiyyətini vurğulayan diplomat əcnəbilər üçün Naxçıvanın olduqca cəlbedici olduğunu və muxtar respublikanın inkişafının bir çox sahədə əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, xatirə şəkli çəkdirilib.

# *ALLAHŞÜKÜR PAŞAZADƏ:* "Biz möminlər şirdən, onun quyruğundan deyil, Allahın buyurduğu kimi, sülhdən, onun rəmzi olan göyərçindən danışmalıyıq"

"Vətən müharibəsinin birinci ildönümü, şəhidlərimizin anım günləri, həmçinin İmam Hüseyn Əleyhissəlamın 40-ı - Ərbəin ərəfəsində Ərdəbil məscidinin imamının səsləndirdiyi fikirlər Azərbaycan cəmiyyətində təəssüflə qarşılanmış, dindarların haqlı narazılığına səbəb olmuşdur. Bu məsələ ilə bağlı dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinə çoxsaylı müraciətlər daxil olmaqdadır".



AZƏRTAC xəbər verir ki, bu fikirlər Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin məsələ ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin deyilir: "Bildiririk ki, Ağayi Amulininin məlum çıxışı, əlbəttə ki, İran-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə, xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsinə xidmət etmir. Ərdəbil kimi qədim, zəngin tarixə malik bir Azərbaycan şəhərində, dini-mədəni irsimizə həmişə ehtiram bəsləyən bir icmanın hüzurunda belə bir çıxışı özünə rəva bilmək ən azı hörmətsizlikdir. İran İslam Respublikasının da etiraf etdiyi kimi, Azərbaycan öz torpaqlarını - Qarabağı azad etməklə ərazi bütövlüyünü bərpa edib. İndi isə bu torpaqlarda öz suveren hüquqlarını, beynəlxalq qanunlara uyğun olaraq möhkəmləndirməklə, erməni barbarlarının dağıtdığı, tar-mar etdiyi evlərimizi, viran qoyub donuz tövləsinə çevirdiyi məscidlərimizi, məhv etdiyi mədəni-mənəvi irsimizi bərpa etdiyi və yenidənqurma işləri apardığı zaman bu uğurlara bizimlə bərabər ağayi Amulinin də sevinməsi məntiqi olardı. Lakin təəssüf ki, Ərdəbil məscidinin imamı qəsbkarların, separatçıların vandal əməllərinə göz yummağı tərcih etdi. Biz dindarlar, möminlər yəqin ki, şirdən, onun quyruğundan, müharibədən deyil, Allahın buyurduğu, Peyğəmbərimizin tövsiyə etdiyi kimi, sülh, barış, dinclik niyyətindən, onun rəmzi olan göyərçindən danışmalıyıq".

Eyni zamanda, qeyd olunub ki, dindarlar, din xadimləri Uca Allahın hökmünə istinadən insanları doğru yola, haqq yoluna, ədalətə dəvət etməlidirlər. Müqəddəs Kitabımızda buyurulduğu kimi, (İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mücadilə et. Şübhəsiz ki, yolunu azanları da, doğru yolda olanları da Rəbbin yaxşı tanıyır (Nəhl, 125).

Azərbaycan-İran dostluq və əməkdaşlıq münasibətlərinə xələl gətirə biləcək belə çıxışlar mehriban qonşuluq, İslam həmrəyliyi ruhuna tamamilə ziddir. Qarabağ münaqişəsi bitib. Zənnimizcə, ağayi Amulinin xütbələrini bu səmtə yönəltməsi münasib olardı.

Allah haqq yolunda olanlara yardımçı olsun!

# QDİƏT Parlament Məclisinin İqtisadiyyat, ticarət və maliyyə məsələləri komitəsinin 57-ci iclası olub

Sentyabrın 22-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadiyyat, ticarət və maliyyə məsələləri komitəsinin videokonfrans formatında 57-ci iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanın qurumdakı nümayəndə heyətinin üzvləri Eldar İbrahimov və Elşad Mirbəşiroğlu, həmçinin digər üzv ölkələrin nümayəndələri iştirak ediblər.

İqtisadiyyat, ticarət və maliyyə məsələləri komitəsinin sədri Petar Kanevin (Bolqarıstan) məlumatı dinlənildikdən sonra gündəlik qəbul edilib, komitənin 2021-ci ilin mart ayında onlayn rejimdə keçirilmiş 56-cı iclasının protokolu təsdiqlənib.

Sonra "QDİƏT-ə üzv dövlətlərdə əczaçılıq sənayesi sahəsində əməkdaşlıq" mövzusuna həsr olunmuş məruzə layihəsini Rusiya nümayəndə heyətinin üzvü Aleksey Kobilyev, tövsiyə layihəsini isə komitənin sədri Petar Kanev təqdim ediblər.

Hər iki təqdimatda dünya iqtisadiyyatının ən innovativ sahələrindən olan müasir əczaçılıq sənayesi ətraflı təhlil olunub. Xəstəliklərin qarşısının alınması və müalicəsi üçün yeni və sınaqdan çıxmış dərmanlar, peyvəndlər hazırlayan əczaçıların çox vacib missiya həyata keçirdiyi vurğulanıb. Xüsusilə COVID-19 pandemiyasının yaratdığı qlobal sağlamlıq böhranı şəraitində dünyada milyonlarla insanın həyatını xilas etmək üçün dərman sənayesinin operativ və təcili yardım təmin etmək problemi ilə üzləşdiyi, dünya miqyasında səhiyyə sahəsində yeni yanaşmaların vacibliyinin ortaya çıxdığı qeyd olunub.

Ümumdünya Səhiyyə Təşkilatına istinadən diqqətə çatdırılıb ki, hazırda təxminən 2 milyard insan üçün əsas dərman vasitələri əlçatmaz olaraq qalır, dünya əhalisinin tam yarısı isə əsas tibbi xidmətlərdən yararlana bilmir.

Məruzələrdə vurğulanıb ki, pandemiya dövründə problemin aktuallığını nəzərə alan QDİƏT PM böhranın aradan qaldırılması üçün üzv ölkələri lazımi daxili islahatlar aparmağa, əlaqədar beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı gücləndirməyə çağırıb, müvafiq hesabat və tövsiyələr hazırlayıb.

Mövzu ətrafında aparılan müzakirələr zamanı Türkiyə nümayəndə heyətinin rəhbəri Cemal Öztürk ölkəsində dərman bazarı və əczaçılıq sənayesinin durumu barədə məlumat verib.

Sonra iclasda "QDİƏT-ə üzv dövlətlərdə əczaçılıq sənayesi sahəsində əməkdaşlıq" mövzusunda məruzə və tövsiyə layihəsi təsdiqlənib, Baş Assambleyada təqdim olunması üçün komitədəki məruzəçilər təyin olunub.

Onlayn iclasda təşkilati məsələlərə də baxılıb. Yunanıstan nümayəndə heyətinin üzvü Mariya-Aleksandra Kefala QDİƏT PM İqtisadiyyat, ticarət və maliyyə məsələləri komitəsinin sədr müavini seçilib. Komitənin növbəti iclasının vaxtı, yeri və gündəliyi müəyyənləşdirilib.

Sonra QDİƏT-in cari fəaliyyəti barədə məlumat dinlənilib.

Onlayn tədbiri yekunlaşdıran Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş katibi Asəf Hacıyev iclasda müzakirə olunan məsələlərə dair fikirlərini açıqlayıb, milli nümayəndə heyətlərinə, eləcə də quruma yeni qoşulan ölkələrin təmsilçilərinə uğurlar arzulayıb.

## *Melisa GELADZE:* "Belə vəhşiliyi mən heç yerdə görməmişəm"

"Cəbrayılda, Füzulidə də olmuşuq. Bu torpaqlarda daş üstə daş qalmayıb, hər yer viran qoyulub. Ermənilər bu torpaqların sahibi deyil. Çünki 30 il işğal altında qalan bu yerlərdə hər şey yıxılıb, dağıdılıb, viran qoyulub. Qəbirləri belə dağıdıblar. Belə vəhşiliyi mən heç yerdə görməmişəm. Hansı ölkə öz torpağını 30 il bu gündə saxlayar..?"

Bu sözləri Şuşada səfərdə olan Gürcüstan nümayəndə heyətinin üzvü Melisa Geladze AZƏRTAC-a açıqlamasında söyləyib.

"Azərbaycanın torpaqlarını işğaldan azad etməsinə çox sevindik. Əminəm ki, Azərbaycan bu yerləri tezliklə gülüstana çevirəcək. Səfər zamanı gördüm ki, azərbaycanlılar burada 24 saat dayanmadan işləyirlər, hər tərəfdə quruculuq işləri görülür. Çünki bu torpaqlar azərbaycanlılara məxsusdur. İnanıram ki, 2 ildən sonra bu yerlər cənnətə çevriləcək", - deyə Melisa Geladze əlavə edib.

# Gürcüstanlı jurnalistlər və blogerlərə erməni qəsbkarlarının Şuşada törətdikləri vandalizm barədə ətraflı məlumat verilib

Azərbaycana səfər edən bir qrup gürcüstanlı media nümayəndəsi və blogerlər işğaldan azad edilən Şuşada olublar.





AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində qonaqlar mərkəzi meydan, Şuşa Bəyannaməsinin imzalandığı məkan, Karvansara, Saatlı məscidi, Natəvanın ev kompleksi, Xan qızı bulağı, Qala divarları, Pənahəli xanın sarayının qalıqları olan ərazi, Bülbülün ev-muzeyi, Cıdır düzü və Molla Pənah Vaqifin məqbərəsində olub, həmçinin Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər.

Qonaqlar Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla da görüşüblər. Xarici jurnalistlərə erməni qəsbkarlarının 30 illik işğal dövründə törətdikləri vandalizm barədə ətraflı məlumat verilib. Bildirilib ki, ermənilər tərəfindən Azərbaycan xalqının maddi və mənəvi irsinə qarşı talan və terror siyasəti yürüdülüb. Gürcüstanlı jurnalistlər və blogerlər ermənilərin cansız heykəlləri də gülləbarana tutduqları, Azərbaycana aid məzarları dağıtdıqları, məscidləri təhqir etdikləri, muzeyləri, kitabxanaları talana məruz qoyduqları haqda məlumatlandırılıblar.

Vurğulanıb ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılırdı.

Otuz ilə yaxın işğal altında qalan Şuşa 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edildi. İndi azad olunan torpaqlarda, o cümlədən Şuşada tikinti-quruculuq işləri geniş vüsət alıb.

Qeyd edək ki, gürcüstanlı jurnalistlər ötən gün Cəbrayıl və Füzuli rayonlarında da olublar.



# ASAN dəstək, şəffaf xidmət

## Prezident İlham Əliyevin 5 il öncə Masallıda açılışını etdiyi "ASAN Həyat" kompleksi cənub bölgəsində vətəndaşlara nümunəvi xidmətin əsas ünvanıdır

*Əvvəli 1-ci səh.*

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir.

Bugünədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon 564 mindən çox vətəndaşın 46 milyon 665 mindən artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 420 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

### Operativlik, şəffaflıq və vətəndaş məmnuniyyəti...

Masallı "ASAN həyat" kompleksinin nüvəsini təşkil edən regional "ASAN xidmət" mərkəzi açılışdan 17 gün sonra - 2016-cı il sentyabrın 20-də tam fəaliyyətə başlayıb. Artıq 5 ilini geridə qoyan "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilk gündən operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Təsadüfi deyil ki, fəaliyyət göstərdiyi müddət ərzində müxtəlif xidmətlərlə bağlı bura müraciət edən 1 milyon 247 min nəfərdən çox vətəndaşın məmnunluq göstəricisi maksimum səviyyədədir. Bu günlərdə fəaliyyətinin 5 ilinin tamam olması münasibətilə Masallı regional "ASAN xidmət" mərkəzindən reportaj hazırlayarkən deyilənlərin şahidi olduq.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin məlumatına görə Masallı regional "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət həyata keçirilir.

Fəaliyyət dövrü ərzində vətəndaşlara səyyar formada da xidmət göstərilib. Səyyar xidmətlərdən bu bölgədə 167 mindən çox vətəndaş yararlanıb.

Bütün "ASAN xidmət"lərdə olduğu kimi, Masallı regional "ASAN xidmət" mərkəzində də vətəndaşların qarşılanmasından tutmuş müraciətlərə baxılmasına kimi bütün proseslər xoş təəssüratlar yaradır. Elə ilk andan gülərüzlə qarşılanan vətəndaş müraciətinə çevik və operativ şəkildə baxılacağına və həll ediləcəyinə əmin olur, tamamilə fərqli bir xidmət məkanına düşdüyünün fərqinə varır. Düzdür, bir müddətdir ki, "ASAN xidmət"lərdə vətəndaşların inzibati binalara daxil olmasından tutmuş bütün digər proseslərə qədər işlər COVID-19 təhlükəsinə görə sosial məsafə tələbləri gözlənilməklə icra olunur. Amma bu "ASAN xidmət" konseptinin əsas elementlərindən olan vətəndaşların ən yüksək səviyyədə qarşılanması və müraciətlərinə çevik şəkildə baxılması kimi prinsiplərin pozulmasına səbəb olmur.

Masallı regional "ASAN xidmət"də söhbətləşdiyimiz yerli sakin Şəhla Əkbərova göstərilən xidmətdən məmnunluğunu ifadə etdi: "Bura bir neçə dəfə gəlmişəm. Hər dəfə də məmnun şəkildə evə qayıtmışam. Binaya girən andan vətəndaşlara yüksək səviyyədə xidmət göstərilir. Müraciətim torpaq alqı-satqısı ilə bağlı idi. Çox sağ olsunlar, müraciətimizə baxıldı və alqı-satqı prosesini həyata keçirdik".

Ramiz Məmmədov da Masallı regional "ASAN xidmət"ə daim müraciət edən vətəndaşlardan biridir. "Dəfələrlə müraicət etmişəm, şəxsiyyət vəsiqəsi almaq üçün notarius xidmətləri və sair. Hər dəfə də buradan böyük razılıqla, məmnunluqla qayıtmışam. Bir dəfə də olmayıb ki, nəyəsə görə əsəbləşim. Binaya daxil olandan işini yekunlaşdırana qədər kollektivin səmimi, gözəl münasibəti ilə qarşılaşırsan. Ona görə belə bir xidmət mərkəzinin yaradılmasına və vətəndaşlara göstərilən yüksək xidmətə görə birinci növbədə dövlət başçısına minnətdarıq".

### Xidmətin operativ həyata keçirilməsində könüllülərin rolu böyükdür

Könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. İndiyədək bu prosesə 27 mindən çox könüllü gənc qoşulub. Bugünə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 650-dən çox layihə həyata keçirilib və 2700-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Masallı regional "ASAN xidmət" mərkəzində də xidmətin operativ həyata keçirilməsində, vətəndaş məmnuniyyətinin təmin olunmasında könüllülərin rolu böyükdür. Qeyd edək ki, ötən 5 ildə burada fəaliyyət göstərən 596 könüllüyə, o cümlədən səyyar "ASAN xidmət"də fəaliyyət göstərən 369 könüllüyə sertifikatlar verilib.

Mərkəzdə könüllülərin bir neçəsi ilə söhbət etdik. Aydan Abışlı Masallının Qızılağac kəndində yaşayır. Bakı Dövlət Sosial-İqtisadi Kollecinin maliyyə ixtisası üzrə məzunudur. Hazırda Masallı regional "ASAN xidmət" mərkəzində könüllü olaraq fəaliyyət göstərir. "Bizim burada əsas işimiz vətəndaşların qarşılanması, məlumatlandırılması, yönləndirilməsi, ərizə və anketlərin doldurulması, vətəndaşların məmnunluq səviyyəsinin ölçülməsi üçün sorğuların götürülməsidir. Həmçinin könüllülük fəaliyyətimizin maraqlı keçməsi üçün müxtəlif tədbirlərdə və təlimlərdə iştirak edirik. Yaxşı ki, könüllülər sırasına qatılmışam və təcrübə qazanmışam", -deyə o bildirir.

İsmayıl Teymurov Masallı sakinidir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin 3-cü kurs tələbəsidir. İnformasiya texnologiyaları ixtisası üzrə təhsil alır. Onun sözlərinə görə, Masallı regional "ASAN xidmət" mərkəzinə könüllü fəaliyyət göstərmək üçün müraciət edib, müsahibədən uğurla keçib və iki aya yaxındır ki, burada fəaliyyət göstərir: "İşimiz vətəndaş axınının idarə olunmasıdır. Könüllülük fəaliyyəti mənim daha uğurlu gələcək karyeram üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki könüllülük ictimai həyata atılan ilk addımdır".













### "ASAN Həyat" kompleksinin xidmət sferası genişdir

Masallı "ASAN Həyat" kompleksi vətəndaşlara layiqli xidməti geniş sferada həyata keçirir. Bu kompleksin tərkibində vətəndaş məmnuniyyətinə yol açan digər xidmət sferaları da yaradılıb. Məsələn, buradakı "ABAD" mərkəzi tərəfindən regionda qida məhsulları sahəsində çalışan "ABAD"çılara onların rəqabətədayanıqlı istehsala yönləndirilməsi üçün müasir standartlara cavab verən istehsal avadanlıqları ilə təchiz olunmuş monoblok - konteynerlər təqdim edilib. Bugünə qədər Masallıda 10 ailəyə istehsal konteynerləri verilib. Konteynerlərdə pendir, sosiska, kolbasa, tərəvəz konservləri, tərəvəz turşuları, mürəbbə, cem, çay istehsal edilir.

Arıçılıqla məşğul olan 3 ailənin bal məhsulunun brendləşdirilməsi və qablaşdırılması "ABAD" tərəfindən həyata keçirilir. Təqdim edilmiş bu istehsal sahələri üzrə məhsulların hər biri "ABAD" satış mərkəzlərində və "BRAVO" şəbəkələrində yerlərini tutub.

2018-ci ildən etibarən "ABAD" Masallı "ASAN Həyat" Kompleksinin daxilində ödənişsiz xalçaçılıq kursları təşkil edir. Burada həm xalçaçılıq dərsləri keçirilir, həm də bu sənətə yiyələnən əsasən evdar xanımların toxuduqları xalçaların satışı təşkil edilir. Eyni zamanda, ötən ildən etibarən kompleksin ərazisində "ABAD"ın etnobutiki də fəaliyyətə başlayıb. Burada "ABAD"çıların əl işləri və bəzi qida məhsulları təqdim olunur.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Lələtəpədən Şuşayadək...

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, Aprel döyüşləri böyük qələbənin çox mühüm bir anonsu idi. Aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun güclü zərbəsi nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı.

Dörd günlük Aprel döyüşləri 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Ordumuzda özünə, gücünə inamının ən yüksək həddə çatmasında bu döyüşlər tarixi əhəmiyyət kəsb etdi. Müharibədə qələbə üçün ordunun ruh yüksəkliyi, hərbçilərin özlərinə inamı son dərəcə vacib amildir. Aprel döyüşləri Ermənistan ordusunda özünə inamı sarsıtdı, Azərbaycan Ordusu qarşısında duruş gətirməyin mümkün olmayacağı qorxusunu yaratdı.

Bir sözlə, Aprel döyüşlərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıdıldı və Ermənistanın işğalçılıq siyasətinin iflasa uğradığının əsası qoyuldu.

Bu savaş Azərbaycan xalqının işğal altında olan torpaqların hərbi yolla azad ediləcəyinə inamını daha çox möhkəmləndirdi. Məhz Aprel döyüşlərindən sonra Azərbaycan cəmiyyətində birmənalı olaraq əminlik yarandı ki, torpaqlarımızı hərbi yolla azad etməyə ordumuz tam hazırdır.

Ali Baş Komandan Aprel döyüşlərinin iştirakçısı olan hərbçilərlə görüşdə dedi ki, bu döyüşlər Azərbaycan xalqının və dövlətinin heç vaxt işğalla barışmayacağını, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəyini təsdiq edən reallıqdır. İlham Əliyev bu sözləri elə-belə demirdi, Aprel savaşındakı qələbəmizə, ordumuzun qüdrətinə əsaslanıb deyirdi və çox keçmədi ki, hər vədinə, sözünə sadiq qalan İlham Əliyev xalqımızın ən böyük arzusunu reallığa çevirdi.

### Tarixə yazılan "Dəmir yumruq" əməliyyatı

Aprel döyüşləri göstərdi ki, artıq Azərbaycanın istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan güclü ordusu var. Amma bu, heç də asanlıqla başa gəlməmişdi.

Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu prosesini uğurla davam etdirən Prezident İlham Əliyev üçün hər zaman bu məsələ bir nömrəli prioritet olaraq qalırdı. Hər il dövlət büdcəsi qəbul edilərkən Silahlı Qüvvələr üçün ayrılan vəsaitin həcmi daha da artırılırdı. Azərbaycan Ordusunun modernləşməsi istiqamətində çox uğurlu addımlar atılırdı. Bütün bunların nəticəsində ordumuzun maddi-texniki təminatı, döyüş əzmi ən yüksək səviyyəyə çatdırıldı. Lazım olan ən müasir silah-sursat, texnika alındı. Eyni zamanda ölkəmizdə bir çox hərbi təyinatlı məhsullar istehsal olunmağa başlandı. Hərbi təlimlər, hazırlıqlar şəxsi heyətin döyüş qabiliyyətini daha da möhkəmləndirdi.

2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri isə İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirən qığılcım oldu.

Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizin illərlə gözlədiyi əmri verdi. Ordumuz əks həmlə hücumla Qarabağın azadlığı uğrunda Vətən müharibəsinə başladı.

Ölkədə Prezident-Xalq-Ordu birliyi vahid dəmir yumruqda birləşdi və igid oğullarımızın şücaəti, rəşadəti Azərbaycanı şanlı qələbəyə apardı.

Sentyabrın 27-dən noyabrın 10-dək olan qısa dövr ərzində həm döyüş meydanında, həm arxa cəbhədə, həm diplomatiya müstəvisində, həm də informasiya məkanında Azərbaycanı qələbəyə aparan mübarizənin şahidi olduq. Ali Baş Komandanın dünya liderləri ilə danışıqları zamanı, xarici media nümayəndələrinə verilən müsahibələrdə prinsipial mövqeyi qələbəyə gedən yolda ordumuza stimul oldu. İlham Əliyevin dönməz iradəsi Azərbaycan əsgərinin döyüş ruhunu artırdı, qələbə inamını daha da gücləndirdi.

Məhz İlham Əliyevin əsl Sərkərdə qətiyyəti ilə Qarabağı sürətlə düşməndən təmizləyən müzəffər ordumuz Cocuq Mərcanlıdan başlanan Zəfər yolunda inamla irəliləyərək Şuşanı fəth etdi və 30 illik işğala son qoyuldu.

İlham Əliyev Şuşaya qalib Komandan kimi ayaq basdı və dünyaya mesaj verdi ki, beynəlxalq təşkilatların illərlə həll edə bilmədikləri məsələni Azərbaycan öz gücünə cəmi 44 günə bitirdi, işğalçı, terrorçu qruplaşmalar Azərbaycan torpaqlarından qovuldu.

Ordumuzun həyata keçirdiyi döyüş taktikası Azərbaycanın hərbi qüdrətini bir daha nümayiş etdirdi. Ali Baş Komandan isə bu müharibəni XXI əsrin yeni savaşı adlandırdı. Ordumuzun yeni müharibə modeli, yeni aparılan əməliyyatlar və savaşın nəticəsi hələ də dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır. Bəzi mütəxəssislərin "smart müharibə" adlandırdıqları bu savaşda çox düzgün hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edilib. Pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoyub. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsil savaşı kimi dəyərləndirilir.

Bir sözlə, bu Zəfər İlham Əliyev diplomatiyasının hərbi-siyasi təntənəsi, 17 illik əzmkar fəaliyyətinin, müstəqil siyasətinin bəhrəsidir.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin tətbiq etdiyi yeni idarəçilik texnologiyalarının nəticələri beynəlxalq platformalarda maraqla qarşılanır

Son illər iqlim dəyişiklikləri, enerji səmərəliliyi və yaşıl enerjiyə keçid məsələləri qlobal miqyasda böyük aktuallıq qazanıb. Həmin səbəbdən bu sahədə dərc olunan elmi əsərlərə müxtəlif beynəlxalq platformalarda maraq gündən-günə artmaqdadır.

Bu günlərdə Kaliforniyada fəaliyyət göstərən və alimlərin əməkdaşlığı üçün nəzərdə tutulmuş academia.edu platformasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Enerji səmərəliliyi davamlı inkişaf indikatoru kimi: Azərbaycanın təcrübəsi" adlı məqaləsi dərc edilib. 2017-ci ildə Kanadanın "Davamlı inkişaf" jurnalında Nyu Yorkun Kolumbiya Universitetinin professoru Jon Lourensin həmmüəllifliyi ilə çap olunan məqalə qısa zamanda 63 milyon qeydiyyatdan keçmiş istifadəçisi olan platformada seçilmiş məqalələr sırasında böyük marağa səbəb olub.

Məqalədə Azərbaycan Respublikasının qısa dönəmdə innovativ davamlı inkişaf siyasətini reallaşdırmağa müvəffəq olduğu vurğulanıb. Beynəlxalq qurumların və müstəqil ekspertlərin sənədləri bu faktın aşkar təsdiqidir. Bildirilib ki, müstəqillik illərində Azərbaycan Respublikasında davamlı inkişaf naminə təbii ehtiyatların idarəedilməsi, xüsusilə də enerji səmərəliliyi sahəsində qazanılmış nəticələr postsovet ölkələri, o cümlədən indi Avropa İttifaqına üzv olan keçmiş sovet respublikaları arasında ən yüksək göstəricidir. Dünya Bankının 2017-ci ilin fevral ayında dərc olunan məlumatlarından göründüyü kimi, bu qrupa daxil olan bütün ölkələrdə eyni iqtisadi effektə nail olmaq üçün Azərbaycandakından daha çox enerji sərf edilir. Ölkənin enerji səmərəliliyi göstəriciləri 2003-cü illə müqayisədə 3 dəfədən çox artıb. Göstərilən nailiyyət ölkədə dövlət idarəçiliyi sahəsində Prezident İlham Əliyev tərəfindən tətbiq edilən unikal dövlət idarəçiliyi texnologiyalarının yekunu və gerçəkləşdirilən uğurlu siyasətin parlaq təcəssümüdür. Eyni zamanda bu, Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyin təmin olunmasına və qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılmasına dair beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmasından xəbər verir. ÜDM-in istehsalı üçün enerji sərfinin azaldılması əsasən yeni yüksək texnologiyaların tətbiqi və iqtisadi inkişaf proseslərinin idarəedilməsi sistemlərinin optimallaşdırılması hesabına mümkündür. Platformada dərc edilən materialdan aydın olur ki, Azərbaycan hər min dollarlıq ÜDM üçün sərf olunan enerji göstəricilərinə görə Kanada, ABŞ, Fransa və Yaponiyadan irəlidədir. Neft ixrac edən dövlətlər arasında isə ölkəmiz Norveçlə 1-2-ci yerləri bölüşür.

***"Azərbaycan"***

# Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının "qaynar xətti"nə müraciətlərin sayı artıb

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının "802 - qaynar xətt" telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair hazırlanmış sosial lövhələrin, videoçarxın metronun stansiyalarında, bir sıra küçə və prospektlərdə, ticarət mərkəzlərində və televiziya kanalları vasitəsilə mütəmadi yayımlanmasından sonra daxil olan vətəndaş müraciətlərinin sayı artıb.

Komissiyanın İşçi qrupundan AZƏRTAC-a bildiriblər ki, bu il avqustun 20-dən sentyabrın 15-dək "qaynar xətt" zəng xidmətinə 213 müraciət daxil olub. Onların 72-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 66-sı narkotik asılılıqdan müalicə, 75-i isə digər məsələlər ilə bağlı olub. Həmin müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinə və Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə ümumilikdə 138 məktub ünvanlanıb.

Beləliklə, narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə "802 - qaynar xətt" zəng xidməti vasitəsilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb. Eləcə də narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

# Mövsümi xəstəliklərlə COVID-19-un oxşarlıqları

Payız fəslinə keçid, havaların getdikcə soyuması mövsümi xəstəliklərin artmasına səbəb olur. Tənəffüs yolu ilə əlaqədar yaranan narahatlıqlar - öskürək, boğaz ağrısı və oxşar problemlərlə üzləşəndə ilk ağla gələn yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma ehtimalıdır. Lakin həmin əlamətlər digər infeksion xəstəliklərlə də əlaqədar ola bilər.

AZƏRTAC xəbər verir ki, həkim-terapevt Nahid Məhərrəmov deyib: "Yuxarı tənəffüs yollarının iltihab və allergiyası olanlar COVID-19-a yoluxma zamanı qripəbənzər əlamətlərlə üzləşə bilərlər. Qripəbənzər əlamətlər, məsələn, quru öskürək, boğaz ağrısı, ishal, temperatur yüksəlməsi olduqda COVID-dən şübhələnmək olar. Lakin halsızlıq, yorğunluq, təngnəfəslik və temperatur yoxdursa, saturasiya 95-dən yuxarıdırsa, narahatlıq keçirməyə əsas yoxdur".

Qızdırma, öskürək və tənəffüs çətinliyi olanlar mütləq həkimə müraciət etməlidirlər. Lakin immunitetin gücləndirilməsi də vacib məsələdir, bunun ən səmərəli yolu isə düzgün və balanslı qidalanmadır. Payız aylarında C vitamini ilə zəngin qidalara daha çox üstünlük verilməlidir: "Mövsümi xəstəliklərdən qorunmağın ən yaxşı yollarından biri qripə qarşı peyvənd olunmaqdır. Soyuqdəymə və zökəm hallarından qorunmaq üçün isə düzgün qidalanmaq, gündəlik rasiona mövsümə uyğun meyvə və tərəvəzlər daxil etmək və çoxlu maye içmək lazımdır. Gərgin iş rejimindən sonra istirahət etmək də immunitetin artırılmasına səbəb olur", - deyə həkim-terapevt əlavə edib.

Hər gün piyada gəzmək və fiziki fəallıq da immun sistemini gücləndirir. Şəxsi gigiyenaya diqqət yetirmək, maska taxmaq da xəstəliklərdən qoruyan əsas şərtlərdir.






# Yeni tədris ili başlandı

## Bölgələrdə məktəb binaları qapılarını şagirdlərin üzünə açıb





Təhsil naziri Emin Əmrullayev orta məktəblərdə yeni tədris ilinin başlanması münasibətilə sentyabrın 22-də Gəncə şəhərində İnternat tipli Xarici Dillər Təmayüllü Gimnaziyanın və Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Respublika liseyində fəaliyyət göstərəcək STEAM Mərkəzinin açılışında iştirak edib.

Əvvəlcə nazir Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində yerləşən abidəsini ziyarət edib, önünə tər gül dəstələri qoyub.

Təhsil naziri Emin Əmrullayev Gəncə Şəhər İcra Hakimiyyətinin birinci müavini Səməd Tomuyev, şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev və digər şəxslərlə birgə Xarici Dillər Təmayüllü Gimnaziyada yaradılan şəraitlə tanış olub.

Qeyd edilib ki, gimnaziyada 2021-2022-ci tədris ilində 623 şagird təhsil alacaq.

Yeni istifadəyə verilən 674 şagirdlik gimnaziya 30 sinif otağı, 140 nəfərlik yeməkxana, 288 nəfərlik akt zalı, kitabxana, 2 texnologiya, 2 informatika, 3 laboratoriya, gənclərin çağırışaqədərki hərbi hazırlığı kabineti və idman zalından ibarətdir. Gimnaziyada təhsil alıb yaşayacaq şagirdlər üçün ikimərtəbəli yataqxana da inşa edilib. Yataqxanada 19 yataq otağı, 1 şahmat, 4 oyun, 2 məşğələ otağı var.

Sonra təhsil naziri Gəncə şəhərindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılan STEAM Mərkəzinin açılışında iştirak edib.

Açılış mərasimindən sonra nazir mərkəzdə yaradılan şəraitlə tanış olub. Emin Əmrullayev ölkədə aparılan təhsil islahatları haqqında məlumat verib, yeni təhsil müəssisələrinin inşasının təhsilin keyfiyyətinin daha da yüksəldilməsinə əhəmiyyətli təsir edəcəyinə əminliyini vurğulayıb.

Qeyd edilib ki, Gəncə STEAM Mərkəzi bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub və STEAM məzmununa uyğun lazımi innovativ texnologiyalarla tam təmin olunub. Mərkəzdə təhsilalanların "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap, mexatronika, pilotsuz uçuş aparatları (dron) istiqamətləri üzrə fəaliyyət göstərməsi üçün sahələr var. Burada yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edə biləcəklər. İl ərzində 3000-3500 şagirdin mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirakı gözlənilir.

2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlara tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və s. kimi bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir. STEAM layihəsi çərçivəsində təhsilalanlar müasir cəmiyyətin müxtəlif sahələrinin inkişafı üçün zəruri olan robototexnika, biotexnologiya, nanotexnologiya, proqramlaşdırma, aerokosmik mühəndislik və pilotsuz uçuş aparatları, elektrik mühəndisliyi, 3D çap istiqamətində bilik və bacarıqlar əldə edirlər.

Emin Əmrullayev jurnalistlərə müsahibəsində məktəblərin əyani qaydada tədrisə başlaması münasibətilə valideynləri, müəllimləri və şagirdləri təbrik edib. Bildirib ki, bu il şagirdlərimiz uzun illərdən sonra ərazi bütövlüyünü bərpa etmiş ölkənin vətəndaşları kimi tədrisə başlayır və hər kəs bunun sevincini yaşayır. "İlin sonuna kimi 88 təhsil müəssisəsinin bərpası və yenidən qurulması nəzərdə tutulub. Həmçinin Quba, Şirvan, Gəncədə STEAM mərkəzlərini istifadəyə vermişik. Bu günlərdə Bərdə, Sabirabad, İsmayıllı, Ağdaş rayonlarında da yeni mərkəzlər istifadəyə veriləcək. Ümumiyyətlə, yaxın gələcəkdə 15 belə mərkəzin istifadəyə verilməsi planlaşdırılır," - deyə E.Əmrullayev vurğulayıb.

* * *

Sentyabrın 22-də Samux rayon institut qəsəbə tam orta məktəbin yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil naziri Emin Əmrullayev, Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev və Samux Rayon Təhsil Şöbəsinin müdiri Nurlana Həsənova iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub.

Məktəbdə yaradılmış şəraitlə tanış olan Emin Əmrullayev daha sonra təhsil müəssisəsinin kollektivi ilə söhbət aparıb.

Qeyd edilib ki, yeni istifadəyə verilən 960 şagird yerlik məktəb binasında 30 sinif otağı, 6 laboratoriya, gənclərin çağırışaqədərki hərbi hazırlıq, məktəbəhazırlıq kabineti, STEAM otağı, kitabxana və oxu zalı, informatika otağı, 160 yerlik yeməkxana, akt və idman zalı fəaliyyət göstərir.

Məktəb binası videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri ilə tam təmin edilib.

* * *

Sentyabrın 22-də Bərdə rayon Qaradəmirçi kənd tam orta məktəbi üçün inşa edilən 624 şagird yerlik bina istifadəyə verilib.

Məktəb binasının açılış mərasimində təhsil nazirinin müavini İdris İsayev, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, rayon Təhsil şöbəsinin nümayəndələri iştirak ediblər. Tədbirdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev müəllim və şagirdləri məktəbin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkəmizdə təhsilə verilən önəmdən, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsinə yönələn mühüm tədbirlərdən danışıb. Bildirib ki, təhsil cəmiyyətin inkişafının əsasını təşkil edir. Təhsilə daim dövlətin diqqət və qayğısı mövcuddur. Ölkəmizdə mövcud olan 4500 ümumtəhsil müəssisəsinin böyük bir qismi yenilənib. Bu o deməkdir ki, 1 milyon 600 min şagird müasir tələblərə cavab verən şəraitdə təhsillərini davam etdirəcəklər. Bu proses hər il davam etdirilir. Bu il 88 məktəbin istifadəyə verilməsi nəzərdə tutulur. Artıq onlardan 55-i tədrisə başlayıb. İlin sonunadək digər məktəb binaları da istifadəyə veriləcək.

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, Milli Məclisin deputatı Zahid Oruc tədbirdə çıxış edərək, müəllim, şagird və valideynləri yeni tədris ilinin başlanması və təhsil müəssisəsinin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkədə və rayonda gedən sosial-iqtisadi inkişafdan, təhsil sahəsində əldə olunan uğurlardan danışıblar.

Tədbirdə söz alan pedaqoji kollektivin nümayəndələri, şagirdlər və kənd sakinləri dövlət başçısına dərin minnətdarlıqlarını bildirib, yüksək qayğıya əməli işlə cavab verəcəklərini söyləyiblər.

Çıxışlardan sonra tədbir iştirakçıları məktəbdə yaradılan şəraitlə tanış olublar. Yeni inşa edilən məktəb 624 şagird yerlikdir. Üç mərtəbədən ibarət olan məktəb binasında 26 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, əmək təlimi, hərbi hazırlıq, informatika və hesablama texnologiyası kabinələri, idman və akt zalları, kitabxana, yeməkxana, inzibati otaqlar yaradılıb. Bina istilik, elektrik, havalandırma, müşahidə, siqnalizasiya sistemləri ilə təmin edilib. Təhsil ocağı lazımi inventar və avadanlıqlarla təmin olunub. Məktəbin həyətində nasosxana, qazanxana və transformator yarımstansiyası, içməli və yanğın əleyhinə su anbarları tikilib, hasarlar yenidən qurulub. Həyətdə, həmçinin idman meydançası inşa edilib, abadlıq işləri aparılıb.

2021-2022-ci tədris ilində təhsil müəssisəsində 531 şagirdin, məktəbəhazırlıq qrupunda isə 36 uşağın təhsil prosesinə cəlb olunması planlaşdırılır. Məktəbdə 61 nəfər pedaqoji işçi çalışır.

* * *

Sentyabrın 22-də, yeni tədris ilinin ilk günü Masallı rayonunun Qızılağac kəndində Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, inşa edilmiş 528 şagird yerlik yeni məktəb binası istifadəyə verilib.

Açılış mərasiminin iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Yeni məktəb binasının açılış mərasimində çıxış edən təhsil nazirinin müavini Muxtar Məmmədov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları Anar İsgəndərov və Məşhur Məmmədov məktəbin müəllimlərini, şagirdləri yeni tədris ilinin başlanması və təhsil ocağı üçün inşa edilmiş yeni binanın istifadəyə verilməsi münasibətilə təbrik ediblər.

Çıxış edənlər ölkəmizdə təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işləri yüksək dəyərləndirərək, məktəbin pedaqoji və şagird kollektivinə yeni dərs ilində uğurlar arzulayıblar.

Tədbir iştirakçıları yeni məktəb binasında yaradılan şəraitlə yaxından tanış olublar.

Təhsil Nazirliyinin sifarişi ilə "İDEAL-TM" Qapalı Səhmdar Cəmiyyətinin inşaatçıları tərəfindən tikilmiş üçmərtəbəli yeni məktəb binası 4 korpusdan ibarətdir. Yeni məktəb binası elektrik, su və istilik sistemi ilə təmin edilib. Otaqlar lazımi avadanlıq və məktəb ləvazimatları ilə təchiz olunub. Məktəbin həyətində qazanxana, nasosxana, 2 ədəd 150 kubmetrlik ehtiyat su anbarı inşa edilib, elektrik transformatoru quraşdırılıb. Təhsil ocağının ərazisi hasara alınıb, dekorativ ağaclar və gül kolları əkilib.

***AZƏRTAC***

## Məktəb tikintisi keyfiyyətli təhsilin əsasıdır

### Dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir

Son illər ölkəmizin təhsil sistemində aparılan islahatların keyfiyyət göstəriciləri məktəblərin infrastrukturunun yaxşılaşdırılması, yenilərinin inşası və əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilməsi ilə sıx bağlıdır.

Azərbaycan Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində respublikamızın bütün bölgələrində müasir tipli məktəb binaları inşa edilir, əsaslı təmir olunur və yenidən qurularaq şagirdlərin istifadəsinə verilir. Məqsədyönlü, davamlı tədbirlər nəticəsində ölkəmizdə son illər çoxlu məktəb binası tikilib və ya əsaslı təmir edilib, nəticədə 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb.

Bu sahədə aparılan işlər bir daha sübut edir ki, məktəblərin yeniləşməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Belə ki, Prezident İlham Əliyev 2020-ci il fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı çıxışında məktəb sisteminin infrastrukturunun yaxşılaşdırılması prosesinin cari il ərzində də davam etdiriləcəyinin anonsunu verib. Dövlət başçısı ötən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldığını, 84 məktəb binasının tikildiyini və təmir edildiyini bildirib: "... Biz məktəblərin böyük hissəsinin təmirini başa çatdırmışıq. Amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır..."

Dövlət başçısının bu açıqlamasından sonra çox gözləmək lazım gəlmədi. Dünyanı bürümüş pandemiya və onun ağır fəsadlarına baxmayaraq, cənab Prezident son aylarda da ölkəmizin təhsil sisteminə diqqət və qayğının bariz nümunəsi kimi paytaxt Bakı ilə yanaşı, regionlarda da məktəb infrastrukturunun yaxşılaşdırılması ilə bağlı bir sıra sərəncamlar imzalayıb. Sərəncamlara müvafiq olaraq, Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işləri davam etdirilir. Bundan əlavə, ölkəmizin ayrı-ayrı regionlarında da yeni məktəb binalarının tikintisi ilə yanaşı, modul tipli təhsil ocaqlarının da inşası geniş vüsət alıb. Dağ və ucqar kəndlərdə dövlət büdcəsi hesabına inşa olunan və yerli əhali, eləcə də şagirdlər tərəfindən razılıqla qarşılanan modul tipli məktəblərin inşası ümumən 2021-2022-ci illərdə başa çatdırılmalıdır.

Xatırlatmaq yerinə düşərdi ki, ötən il də bu sahədə müəyyən diqqətçəkən tədbirlər həyata keçirilib. Ümumiyyətlə, yeni tədris ilində 34-ü modul tipli olmaqla, 47 məktəb binasının istifadəyə verilməsi nəzərdə tutulub. İlin sonunda isə 100-ə yaxın (o cümlədən 60 modul tipli) məktəb binası istismara veriləcək.

Hazırda Təhsil Nazirliyi tərəfindən 106 (o cümlədən,



60 modul tipli məktəb) təhsil müəssisəsi, 3 peşə məktəbi və 3 məktəbdənkənar təhsil müəssisələrində əsaslı təmir və tikinti işləri aparılır. 26 təhsil müəssisəsinin, 3 peşə məktəbinin və 1 məktəbdənkənar təhsil müəssisəsinin layihə-smeta sənədlərinin hazırlanması işləri aparılır. 2015-2019-cu illərin statistik məlumatına əsasən, bu müddət ərzində 349 təhsil müəssisəsi istifadəyə verilib.

Azərbaycan məktəblərində ümumilikdə 85 min 626 sinif var. 49 min sinifdə şagird sayı 20 nəfərdən azdır. 2021-2022-ci tədris ilinin təşkili ilə bağlı brifinqdə bildirilib ki, ümumi sinif sayının 23 faizində şagird sayı 21-25 arasındadır. Yalnız 311 sinifdə şagird sayı 40 nəfərdən çoxdur. Bu isə bütün siniflərin 0,4 faizini təşkil edir.

Regionlara gəlincə, paytaxt Bakı ilə yanaşı, respublikanın əksər bölgələrində də yeni məktəb tikintisi və köhnələrinin əsaslı şəkildə bərpası da sürətlə davam etdirilir. Yalnız ötən il Qazax rayonunu Sarıvəlli kənd tam orta məktəbinin tikintisi ilə yanaşı, düşmənlə sərhəddə yerləşən Aydın Məmmədov adına Qaymaqlı kənd tam orta məktəbi üçün də 180 şagird yerlik yeni bina inşa edilir. Heydər Əliyev Fondu tərəfindən Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagird yerlik Kosalar kənd tam orta məktəbi isə əsaslı şəkildə yenidən qurulur.

Xaçmazda məktəb infrastrukturunun təkmilləşdirilməsi sahəsində işlər davam etdirilir. Dövlət başçısının müvafiq sərəncamları ilə Xaçmaz rayonunda yeni məktəblərin, o cümlədən 4 yeni modul tipli məktəbin tikintisi ləngiməyib.

Son illər təhsil sahəsinə ayrılan vəsaitlərin həcmi artıb, təhsil müəssisələrinin infrastrukturu müasirləşdirilib. Son 10 ildə təkcə Xaçmaz rayonu üzrə 50-yə yaxın ümumtəhsil məktəbi tikilərək şagird və müəllim kollektivlərinin istifadəsinə verilib. Rayonun Qaraçaycək və Qədmalıqışlaq kəndlərində 56 yerlik, Tikanoba kəndində 20 yerlik ibtidai, Əbilyataq kəndində 96 yerlik tam orta modul tipli yeni ümumtəhsil məktəbin tikintisi, 440 yerlik Xudat şəhər 1 nömrəli tam orta məktəbin yeni binasında son tamamlama, 380 yerlik Qımılqışlaq kənd tam orta məktəbində isə əsaslı təmir-tikinti işləri başa çatdırılıb. Həmçinin 1176 yerlik Xaçmaz şəhər 6 nömrəli tam orta məktəb Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə yalnız ötən il 30 ümumtəhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib. Təhsil Nazirliyi tərəfindən 94 təhsil müəssisəsi tikilib və əsaslı təmir edilib ki, onlardan 27-də tikinti, bərpa-gücləndirmə, 7-də əsaslı təmir işləri görülüb, 60 modul tipli məktəb quraşdırılıb.

Sentyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olarkən məlumat verildi ki, orada 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir.

Bütün bu işlər həm də Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısının olduğunu göstərir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan dövlətinin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***













*Fotolar İlham BABAYEVİNDİR*

## Şagird və tələbələri nə gözləyir

### Distant, yoxsa ənənəvi təhsil

Təhsil elmin əsas bünövrəsi və ümumilikdə cəmiyyətin inkişafında mühüm amildir. Buna görə də Azərbaycan dövləti istər ümumorta, istərsə peşə, istərsə də ali təhsilin səviyyəsinin ildən-ilə yüksəldilməsi istiqamətində bütün mümkün vasitə və imkanlardan istifadə edir. Əlbəttə, burada əsas müasir yeniliklərə cavab verən, informasiya texnologiyalarından bəhrələnmək imkanına malik məktəblərin olmasıdır. Lakin burada daha incə məqamlar var və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə keçirilən son brifinqdə həmin məqamlar müzakirə edilmişdir.

Məlum olduğu kimi, 2020-ci il martın 2-də Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən COVID-19 infeksiyasına yoluxma halının qarşısının alınması, ölkə ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tibbi profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə tədrisin, təlim-tərbiyə prosesinin dayandırılması və bununla əlaqədar bütün tədbirlərin təxirə salınması barədə qərar qəbul edilmişdir. Həmin qərar çərçivəsində təhsilin fasiləsizliyini və davamlılığını təmin etmək üçün Təhsil Nazirliyi tərəfindən təxirə salınmadan yeni təşəbbüslərin reallaşdırılmasına başlanmışdır. İlk növbədə, əhatə dairəsinə görə ən geniş olan ümumi təhsil pilləsində teledərslərin təşkili ilə bağlı işlərə start verilmişdir. Növbəti addım kimi, aprelin 2-dən "Virtual məktəb" layihəsi tətbiq olunmuş, ölkənin ən iri milli onlayn platforması şagirdlərin istifadəsinə verilmiş, daha sonra epidemioloji vəziyyət nəzərə alınaraq dərslər pandemiya qaydalarına uyğun, həm onlayn, yəni distant, həm də ənənəvi qaydada təşkil edilmişdir.

Nazir son brifinqində KİV-in suallarını cavablandırmadan öncə maraqlı məqamlara toxunaraq bildirmişdir ki, 2020-ci ilin mart ayından başlayaraq, dünyada, o cümlədən Azərbaycanda koronavirus pandemiyası ilə bağlı distant təhsilə keçilmişdir: "Növbəti, yəni 2021-2022-ci tədris il ilə bağlı onu deyə bilərik ki, uzunmüddətli fasilədən sonra, nəhayət ki, ölkəmizdə də ənənəvi təhsilə qayıtmaq imkanı yarandı. Bu proses mərhələlərlə həyata keçiriləcək. 22 sentyabr tarixdən 1-4, 29 sentyabrdan isə 5-11-ci siniflər, həmçinin ali və orta ixtisas təhsil müəssisələrində dərslər başlayacaq. Ənənəvi təhsilə qayıdış o deməkdir ki, pandemiya şəraiti nəzərə alınmaqla, müəyyən məhdudiyyətlərlə davam etdiriləcək. Lakin ən əsası ənənəvi təhsilə qayıdış o deməkdir ki, öyrəşdiyimiz kimi, həftədə beş gün olmaqla, dərslər davam etdiriləcək. Bu da imkan verəcək ki, şagirdlər və tələbələr köhnə qayda ilə sevimli məktəblərində müəllimləri ilə üz-üzə olmaq imkanı qazansınlar..."

Brifinqdə qeyd olunmuşdur ki, həm Təhsil Nazirliyi, həm də Təhsil İnstitutu müxtəlif beynəlxalq təcrübələri, ÜST-ün tövsiyə və məsləhətlərini nəzərə alaraq, müvafiq təşkilatlara təkliflər verib. Avqust ayının 25-nə olan məlumatlara əsasən, dünyanın 134 ölkəsində təhsillə bağlı qərarlar qəbul olunub. Belə ki, 63 ölkədə məktəblər açılıb, 55 ölkədə məktəblərin açılacağı elan edilib, 49 ölkədə isə hələ heç bir qərar qəbul olunmayıb.

Nazirin sözlərinə görə, təhsil müəssisələrinin açılması virusun yayılmasına müəyyən mənada təsir edən, istər nəqliyyatda, istər iş yerlərində, istərsə də ailələrdə yoluxmaya səbəb olan faktor kimi nəzərə alınmalıdır. Eyni zamanda nəzərə alınmalıdır ki, ölkənin təhsili onun gələcəyi, siyasəti, mədəniyyəti, inkişafın əsasını təşkil edən, stimullaşdıran iqtisadiyyatıdır. Təhsil alanların öyrənmə prosesi vacib məsələdir: "Nə olursa-olsun, biz təmin etməliyik ki, uşaqlar, məktəblilər öyrənsinlər. Yəni təhsildən kənarda qalmasınlar. Məqsəd ondan ibarətdir ki, qərarlar verilərkən ən optimalı qəbul edilsin".

Təbii ki, yeni tədris ilində istər tələbələri, istərsə də valideynləri maraqlandıran və ciddi düşündürən məsələlərdən biri də güzəştlərlə bağlıdır. Bu məsələ ilə bağlı səsləndirilən fikirlərdə göstərilir ki, təqribən 113 min tələbə ödənişli təhsil alır. Onlardan 15 min 209 nəfərinin təhsilhaqqı sosial güzəştlərlə bağlıdır. Əslində isə bütün tələbələrə güzəşt edilməsi ədalətli olardı. Çünki 176 min tələbənin 113 mini təhsili ödənişli alır. 15 min 209 tələbənin təhsil haqqı isə dövlət tərəfindən ödənilir. Burada əsas meyar kimi ailənin sosial vəziyyəti, yəni ehtiyac meyarı əsas götürülüb. Daha 17 min tələbə isə sosial cəhətdən həssas qrupa daxildir. Onlar əsasən məcburi köçkün statusu olanlardır. Bu kateqoriyaya daxil olan tələbələrin də təhsil haqqı dövlət tərəfindən ödənilir. Beləliklə, 32 mindən artıq tələbə sosial güzəştdən yararlanmaq hüququ qazanıb.

Xəbər verildiyi kimi, bu il birinci kurs tələbələri ali məktəblərə məlum səbəblərlə bağlı sentyabrın 15-dən deyil, oktyabrın 1-dən gedəcəklər. Bu, ali məktəblərlə tanışlıq xarakteri daşıyacaq. Sonra ümumi vəziyyət nəzərə alınaraq təhsilin distant, yaxud ənənəvi davam etdirilməsi haqqında qərar qəbul ediləcək.

***M.NƏRİMANOĞLU, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan məhsulları "WorldFood Moscow 2021" sərgisində nümayiş olunur



Moskvada "WorldFood Moscow 2021" sərgisi öz işinə başlayıb. Sərgidə Azərbaycan da iştirak edir.

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə Azərbaycanın 20-dən çox şirkətinin istehsalı olan meyvə şirələri, müxtəlif növ şərablar, təbii mineral sular, çay, süd məhsulları, fındıq, meyvə-tərəvəz, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları və s. məhsullar "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunur.

Sentyabrın 24-dək davam edəcək sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirəcək, məhsul ixracına dair müzakirələr aparacaqlar.

## "Məşğulluq marafonu"na qoşulanların sayı 512-yə çatdı

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan "Məşğulluq marafonu"nda iştirak edən işəgötürənlərin sayı artaraq 512-yə çatıb. Onların 268-i dövlət, 244-ü özəl müəssisələrdir.

Vətən müharibəsində yaralanmış qazilərimizin və şəhid ailəsi üzvlərinin məşğulluğuna dəstək məqsədi daşıyan marafona işəgötürənlər tərəfindən artıq 2518 vakansiya təqdim edilib.

Vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 736 nəfər (o cümlədən 122 şəhid ailəsi üzvü və 614 qazi) işlə təmin olunub. Hazırda da bu kateqoriyalardan olanlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

## Növbəti hərracda 24 dövlət əmlakı özəlləşdirilib

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təşkil olunmuş son hərracda 24 dövlət əmlakı özəlləşdirilib.

Bunlardan 23-ü nəqliyyat vasitəsi, 1-i isə kiçik dövlət müəssisəsidir. Özəlləşdirilən dövlət əmlakı üzrə 7-si elektron olmaqla, 101 sifariş verilmişdi.

Kiçik dövlət müəssisəsi Ağdaş rayonu, Nemətabad kəndində yerləşən istehsal sahəsidir.

## «Equinor» Azərbaycanla əməkdaşlığını daha da dərinləşdirmək niyyətindədir

### Bunu şirkətin Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri də vurğulayıb

*Norveçin enerji şirkəti "Equinor"un Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri təyin olunub. Stiq Otland (Stig Aatland) öz yeni vəzifəsinin icrasına bu ilin sentyabr ayından etibarən "Equinor"un Bakıdakı ofisində başlayacaq. Stiq bu vəzifədə şirkətin Azərbaycandakı fəaliyyətinə 2017-ci ildən rəhbərlik edən Favad Quraişini əvəz edəcək.*




Xatırladaq ki, "Equinor" neft-qaz və ixrac layihələrində etibarlı və ən iri tərəfdaşlarımızdandır. 2018-ci ilədək "Statoil" adlanan "Equinor" Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir. Şirkət "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku layihəsi üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (7,27 faiz) və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin (8,71 faiz) iştirakçısıdır.

2018-ci ilin may ayında SOCAR və "Equinor" şirkətləri Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsinə dair Risk Xidməti Sazişi və "Əşrəfi-Dan Ulduzu-Aypara" sahəsinin kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında saziş imzalamışlar. Sazişlərə əsasən, şirkətlər bərabər paya malikdir.

Bir sözlə, "Equinor"la əməkdaşlıq və tərəfdaşlığımız uğurla davam edir. Şirkətin Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri təyin olunmuş Stiq Otland bu əməkdaşlığın daha da dərinləşəcəyini vurğulayıb.

Qeyd edək ki, Stiq Otland neft və qaz sənayesində 15 ildən artıq peşəkar iş təcrübəsinə malikdir. O, 2006-cı ildən "Equinor" şirkətində müxtəlif rəhbər vəzifələrdə çalışır. Yeni təyinatına başlamazdan əvvəl Stiq Qlobal Kəşfiyyat və Qazma İşləri üzrə vitse-prezident, Norveç kontinental şelfində üçüncü ən böyük neft yatağı olan "Yohan Sverdrup"



layihəsində qazma və quyular üzrə vitse-prezident, "Stavanger" mobil qazma qurğuları üzrə vitse-prezident və "Equinor"un Norveç kontinental şelfində bütün mobil qazma qurğuların əməliyyatları üzrə rəhbər vəzifələrində işləyib. Hazırda o, həmçinin Beynəlxalq Kəşfiyyat və Hasilat üzrə vitse-prezident vəzifəsini tutur.

"Əsrin müqaviləsi"nin 27-ci ildönümü ərəfəsində "Equinor"un Azərbaycan üzrə rəhbəri təyin olunan Stiq Otland demişdir: "Equinor"un Azərbaycan üzrə rəhbəri vəzifəsinə təyin olunduğum üçün çox məmnunam. "Equinor" şirkəti Azərbaycanda 30 ilə yaxındır ki, fəaliyyət göstərir, bu bizim ən böyük və ən uzunmüddətli beynəlxalq öhdəliklərimizdən biridir. AÇG və BTC layihələrinin hələ ilk günlərindən iştirakçısı olmağımızdan qürur duyuruq. 1994-cü ildən bəri AÇG layihəsindəki tərəfdaşlarımızla birlikdə möhtəşəm nailiyyətlər əldə etmişik və bundan sonra da Azərbaycana olan möhkəm bağlılığımızı göstərməkdə davam edəcəyik. Hazırda AÇG yatağındakı mövqeyimizlə yanaşı, Xəzər dənizinin Azərbaycana aid sektorunda yeni imkanları dəyərləndiririk və SOCAR-la olan əməkdaşlığımızı daha da dərinləşdirmək niyyətindəyik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Dubayda keçirilən "Gastech 2021" tədbirində iştirak edib

Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) energetika və infrastruktur naziri Süheyl Məhəmməd əl-Məzruinin dəvəti ilə cari ilin 21-23 sentyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən və 300-dən çox yüksək vəzifəli şəxsin, o cümlədən siyasətçilər, iş adamları və ekspertlərin iştirak etdiyi "Gastech 2021" sərgi və konfransında iştirak edib.

Nazir "Hidrogen təchizatı zəncirinin sürətlə genişlənməsinə dəstək siyasəti" mövzusu üzrə nazirlər panelində çıxış edib. Energetika naziri iqlim dəyişikliyinin dünyanın enerji keçidini təşviq edən reallıq olduğunu vurğulayıb, enerji təhlükəsizliyi və ekoloji təhlükəsizlik arasında balansa nail olmaq məqsədilə "yaşıl enerji"dən istifadənin təxirəsalınmadan genişləndirilməsinin vacibliyini qeyd edib. Bildirilib ki, enerji keçidi prosesinin effektivliyi enerji istehsalçıları və istehlakçıları arasında geniş dialoqu zəruri edir.

P.Şahbazov enerji keçidi prosesi ilə əlaqəli ölkəmizdə həyata keçirilən tədbirlər, bərpa olunan enerji sahəsində reallaşdırılan layihələr və perspektivlərdən də bəhs edib: "Ənənəvi enerji resurslarının ixracatçısı olan Azərbaycanın 2030-cu ilə qədər hədəfi elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerjinin payını 30%-ə çatdırmaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu müddətdə "təmiz ətraf mühit"ə nail olmaq və "yaşıl artım" ölkəsinə çevrilmək sosial-iqtisadi inkişafın beş Milli Prioritetindən biri kimi müəyyənləşdirilib ki, bu da ölkəmizin enerji keçidi ilə bağlı kursuna sadiq olduğunu göstərir".

## "Çıraq" platformasından hasilat profilaktik işlər səbəbindən müvəqqəti dayandırılacaq

BP "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yatağının illik iş proqramının bir hissəsi olaraq "Çıraq" platformasının planlaşdırılmış dayandırılması proqramını həyata keçirəcək.

Plana əsasən, Çıraq platformasından hasilat 2021-ci il sentyabr ayının 23-dən başlayaraq təqribən 25 gün müddətinə dayandırılacaq ki, planlaşdırılmış profilaktik işlər, inspeksiya və layihə işləri effektiv şəkildə aparılsın.

BP-dən bildirilib ki, bu proqram çərçivəsində müxtəlif layihələr, o cümlədən məşəl uclarının dəyişdirilməsi, alışdırma sisteminin modernləşdirilməsi, ötürücü siyirtmələrin dəyişdirilməsi və vacib təmir işləri həyata keçiriləcək. Proqramın iş həcminin əsas hissəsini "Çıraq" qazlift layihəsinin yalnız platformanın dayandığı vaxt icra oluna bilən işləri təşkil edəcək. Bu layihə "Çıraq"ın istismar ömrünün uzadılması, hasilatın gücləndirilməsi və platformada iş prosesinin daha təhlükəsiz və etibarlı şəkildə davam etməsi üçündür.

Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə müntəzəm həyata keçirilir.

## Sumqayıt keçmiş statusunu çoxdan dəyişib



### İndi şəhərdə ekoloji cəhətdən təmiz, müasir sənaye müəssisələri fəaliyyət göstərir

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi kurs 18 ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edir. Şəhər və rayonlarımızda bunun nəticələrini aydın görmək olur. Bu sırada Sumqayıtın da xüsusi yeri var. 72 il əvvəl təvəllüd tapmış şəhərimiz bu illər ərzində böyük inkişaf yolu keçmiş və Cənubi Qafqazın sənaye mərkəzlərindən birinə çevrilmişdir.

Heydər Əliyevin arzularının və əməllərinin reallaşdığı Sumqayıt indi özünün yeni inkişaf mərhələsini yaşayır. Sənaye ənənələrinin davamı olaraq şəhərdə müasir texnologiyalara malik istehsal kompleksləri yaradılır. Artıq Sumqayıtda demək olar ki, köhnə istehsalat sahələri qalmamışdır. Onların əvəzinə Sumqayıt Texnologiyalar və Sumqayıt Kimya Sənaye parklarında onlarca müasir müəssisə fəaliyyət göstərir. Bu cür parkların yaradılması, ilk növbədə, istehsalın genişlənməsinə, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının artmasına imkan verir.

Cənubi Qafqazda ən böyük, Azərbaycanda isə ilk olan Sumqayıt Kimya Sənaye Parkında hazırda 24 sahibkarlıq subyekti üçün münbit şərait yaradılmışdır. 17 rezidentin fəaliyyət göstərdiyi parkda 5500-dək insan işlə təmin olunmuşdur. Amma bu, son deyil, növbəti mərhələdə parkda daha 7 rezidentin - yun ipliklər və təmiz yun istehsalı, məmulatların (datanın) emalı, baytarlıq preparatlarının və yem əlavələrinin istehsalı, qablaşdırma məhsullarının istehsalı, şüşə tara məhsullarının, sulfat turşusunun istehsalı və polimer materialların emalı layihələrinin istismara verilməsi nəzərdə tutulur. Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyevin 2011-ci il dekabrın 21-də imzaladığı sərəncamla yaradılmış bu sənaye parkında hazırda ümumi investisiyaların həcmi 3,2 milyard ABŞ dollarına çatmışdır. Nəticədə burada məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika davam edir. Belə ki, 2020-ci ilin birinci yarısında sənaye parkının rezidentləri tərəfindən 534 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2021-ci ilin eyni dövründə bu göstərici 794 milyon manat olmuşdur. Başqa bir fakt: 2020-ci ilin ilk 6 ayında park üzrə 182 milyon manatlıq məhsul ixrac edilmişdisə, bu ilin ilk yarısında ixracın dəyəri 267 milyon manata çatmışdır. Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Hollandiya, İtaliya, Çexiya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, BƏƏ, Livan, İraq, Yaponiya, ABŞ, Kanada, İsrail, İspaniya və s. kimi ölkələrə ixrac edilmişdir.

Pandemiya şəraitinə baxmayaraq son iki ildə Kimya Sənaye Parkında bir neçə yeni müəssisə istifadəyə verilmişdir. 2020-ci il aprelin 6-da "Bakı Tekstil fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi və bu günlər istismara verilən "Azmonbat" zavodu Prezident İlham Əliyevin iştirakı ilə fəaliyyətə başlayıb.

"Azmonbat"da qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılır və nəticədə propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə olunur. Müəssisədə bir sıra ölkələrin qabaqcıl texnologiyalarından istifadə edilir. 100 nəfərin daimi işlə təmin olunduğu zavodda istehsal edilən məhsulların daxili bazardan başqa, Türkiyə, Bolqarıstan və MDB ölkələrinə ixrac edilməsi nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkında Karbamid zavodu və "SOCAR Polymer" layihələrinin icrası nəticəsində karbohidrogen ehtiyatlarına söykənən yeni məhsullar istehsal olunur. Bu zaman neft və qaz xammal kimi deyil, daha dəyərli məhsula çevrilərək satışa göndərilir. Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Sumqayıtda yaradılan sənaye müəssisələri əsasən qeyri-neft sektorunun inkişafına yönəlir.

Sözsüz ki, Sumqayıtda yeni müasir texnologiyalara söykənən müəssisələrin yaradılması şəhərin enerjiyə olan tələbatını artırır və görülən tədbirlər sayəsində həmin tələbat ödənilir. Belə tədbirlərdən biri də gücü 525 meqavat olan "Sumqayıt" Elektrik Stansiyasının şəhərin 60 illik yubileyi ərəfəsində Prezident İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilməsidir. Müəssisə bu gün şəhərin və Abşeron yarımadasının enerji təhlükəsizliyində önəmli rol oynayır.

Ümumiyyətlə, ölkəmizdə enerji sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, potensialının artırılması, yeni stansiya və yarımstansiyaların inşaası, mövcudlarının əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm layihələr icra olunur. Dövlət başçısının tapşırığına əsasən, 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması bu istiqamətdə həyata keçirilən işlər arasında xüsusi əhəmiyyəti ilə seçilir. Məlum olduğu kimi, bu proqramın icrası çərçivəsində tədbirlər görülməsəydi, 2019-cu və 2020-ci illərin yayında artan tələbatın, həmçinin Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsinin fonunda enerjisistemdə problemlər yarana bilərdi.

Söz düşmüşkən. Son illər Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyu ilə təminatında ciddi problem yaratmaqla yanaşı, avadanlıqlarının da tədricən sıradan çıxmasına səbəb olmuşdu. Hətta bu səbəbdən il ərzində bir neçə dəfə qəza açılmaları baş vermişdi. Məhz Reabilitasiya Proqramı çərçivəsində "Sumqayıt" Elektrik Stansiyasında əsas avadanlıqlar, generatorlar və digər qurğular əsaslı təmir olunmuş, stansiyanın mövcud su nasos stansiyası yenidən qurulmuşdur. Aparılan bu işlər stansiyanın etibarlı və səmərəli fəaliyyətini təmin etmişdir.

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***

## "Şəhərdən kəndə" aqroekoturizm layihəsi çərçivəsində daha bir təsərrüfata dəstək verilib

Kənd Təsərrüfatı Nazirliyinin "Şəhərdən kəndə" aqroekoturizm layihəsi çərçivəsində növbəti təsərrüfata dəstək göstərilib.



Qax rayonunda yerləşən arıçılıq təsərrüfatında yenidənqurma işləri aparılıb, arı südü istehsalı ərazisi hasarlanıb, təsərrüfat sahəsi abadlaşdırılıb. Xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə təsərrüfat bir sıra avadanlıqlar və əşyalarla təmin olunub.

Bununla bağlı keçirilən tədbirdə bildirilib ki, iqtisadiyyatın diversifikasiyası fonunda kənd təsərrüfatı ölkənin prioritet sahələrindən biri olmaqla, son dövrlər sürətlə inkişaf edir. Kənd təsərrüfatının inkişafı həm də təhsil, məşğulluq, innovasiya, ticarət və turizm kimi sahələrin inkişafına da təkan verir. Bu səbəbdən regionların sosial-iqtisadi inkişafı istiqamətində bir sıra sosialyönümlü layihələr həyata keçirilir. Bu layihələrdən biri aqrar sahənin inkişafı vasitəsilə kənd turizminin formalaşmasına yönəlmiş "Şəhərdən kəndə" aqroekoturizm layihəsidir.

Aqroekoturizm dünyanın müxtəlif ölkələrindən olan insanların diqqətini kənd yerlərinə, mövcud təsərrüfatlara və ekologiyanın qorunmasına yönəlmiş bir fəaliyyətdir. Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsi, zəngin biomüxtəlifliyə və eko sistemə, həmçinin müasir infrastruktura malik olması aqrar turizmin inkişafı üçün münbit şərait yaradır. "Şəhərdən kəndə" layihəsi çərçivəsində bölgələrdə aqroekoturizm obyektlərinin müasir standartlar əsasında qurulmasına dəstək verilir. Artıq 5 belə təsərrüfata müvafiq dəstək göstərilib.

Tədbirin yekununda "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" layihəsi çərçivəsində təlimlərə cəlb olunmuş qadınlara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, "Şəhərdən kəndə" layihəsi "Paşa Holdinq"in dəstəyi ilə korporativ sosial məsuliyyət proqramı çərçivəsində həyata keçirilir. Bu günə qədər "Şəhərdən kəndə" layihəsinə qoşulmaq üçün 200-dən artıq fermer müraciət edib. Müraciət edən fermerlərin təsərrüfatlarına baxış zamanı bu təsərrüfatlardan 97-si aqroekoturizm üçün uyğun sayılıb. Əcnəbi və yerli mütəxəssislər tərəfindən 115 təsərrüfat sahibinə aqroekoturizm obyektlərinin qurulması istiqamətində təlimlər keçirilib, 40-dan çox təsərrüfata turlar təşkil olunub. Bu turlarda 900-ə yaxın turist, o cümlədən 170 əcnəbi turist iştirak edib.

## Paytaxtın Ziya Bünyadov prospektində yeni yerüstü piyada keçidi tikilib

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) sifarişi ilə Bakı şəhəri, Ziya Bünyadov prospekti, 9 nömrəli Bakı Peşə Liseyinin qarşısında yeni yerüstü piyada keçidi inşa edilib.

Beynəlxalq standartlara cavab verən müasir texnologiyalar əsasında ekoloji cəhətdən təhlükəsiz və keyfiyyətli materiallardan istifadə edilərək inşa edilən yerüstü piyada keçidi piyadaların avtomobil yolunu rahat və təhlükəsiz şəraitdə keçməsini təmin etməklə yanaşı, özünün memarlıq elementləri, xüsusən gecə görüntüsü ilə şəhərin görkəminə xüsusi rəng qatır.

Müasir görünüşü ilə fərqlənən keçidin ümumi uzunluğu 90.08 metr, qalereyanın uzunluğu 57.10 metr, daxili eni 3.5 metr, keçidaltı qabariti isə 5.8 metrdir.

İki giriş-çıxışdan ibarət olan keçiddə fiziki məhdudiyyətli insanların rahat hərəkətini təmin etmək üçün müasir lift sistemləri quraşdırılıb. Həmçinin videomüşahidə qurğuları quraşdırılıb ki, bu da fasiləsiz nəzarətə imkan yaradır.



## DOST-un səlahiyyəti və xidmətlər sayı genişlənib

Prezident İlham Əliyevin imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin Nizamnaməsində bəzi dəyişiklik və əlavələr edilib, agentliyin səlahiyyət və xidmətləri sırası daha da genişləndirilib.

Fərmana əsasən, agentliyin vəzifələri və hüquqları sırasına DOST mərkəzlərində göstərilən xidmətlərlə əlaqədar monitorinqlər aparmaq da daxil edilib. Həmçinin DOST mərkəzlərinin fəaliyyətinə könüllülərin (xüsusilə gənc mütəxəssislərin və tələbələrin) cəlb edilməsi, onların həvəsləndirilməsi üçün tədbirlər görülməsi məqsədilə agentliyə təhsil müəssisələri ilə yanaşı, qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək imkanları verilib.

Eyni zamanda DOST mərkəzlərində "bir pəncərə"dən, şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipinə uyğun təqdim edilən xidmətlərin sırası yeni fərmanla daha da genişlənib. Belə ki, həmin xidmətlərin sırasına edilmiş əlavələrə əsasən, bundan sonra DOST mərkəzlərində əmək qanunvericiliyinin pozulmasına dair müraciətlərin qəbulu və mediasiya xidmətləri də göstəriləcək.

Övladlığagötürmə sahəsində vəzifələrin icrasının təmin edilməsi, övladlığagötürmənin əsaslandırılması və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy verilməsi, bu sahədə nəzarətin həyata keçirilməsi, habelə övladlığagötürmənin ləğvinin tələb edilməsi istiqamətləri isə nazirliyin tabeliyində yaradılan Sosial Xidmətlər Agentliyinə aid olduğundan həmin istiqamətlərlə bağlı yarımbəndlər DOST Agentliyinin Nizamnaməsindən çıxarılıb.

Ümumilikdə ilk DOST mərkəzinin açıldığı vaxtdan, yəni 2019-cu ilin may ayından bu mərkəzlərin sayı 5-ə çatdırılmaqla, DOST xidmətlərinin sayı da təqribən 30 faiz artaraq 154-ə çatıb.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün idman inventarının və digər avadanlıqların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 300 (üç yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat:Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcüd qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 2 (iki) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 13.10.2021-ci il saat 10:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 21.10.2021-ci il saat 10:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 22.10.2021-ci il saat 10:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## DİN-in Baş Dövlət Yol Polisi İdarəsi

### *açıq tender elan edir*

LOT- 1: 2022-ci ilin tələbatına uyğun olaraq DİN-in Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən "Nəqliyyat vasitələri üçün dövlət qeydiyyat nişanlarının, dövlət qeydiyyat şəhadətnamələri və sürücülük vəsiqələri üçün blankların istehsalı, habelə istehsal prosesinin təmin edilməsi üçün dəstləşdirici mal-materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Ətraflı məlumatı Xırdalan, Binəqədi şosesi, 4 (Əlaqələndirici şəxs: Əvəz Məmmədzadə. telefon: +994125908160 (itts703@rambler.ru)) ünvanından almaq olar.

**İştirak haqqı: LOT- 1: 3000 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat - Baş Dövlət Yol Polisi İdarəsi**
**VÖEN: 9900063851**
**H/h: AZ45CTRE00000000000002078506**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT Bik: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti) 30 bank günü.*
4. *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü.*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *Satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.*
9. *Sahibkarlıq subyektinin meyarına dair sənəd.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27.10.2021-ci il saat 13:00- a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10.11.2021-ci il saat 13:00-a qədər Xırdalan, Binəqədi şosesi, 4 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 11.11.2021-ci il saat 13:00-da Xırdalan, Binəqədi şosesi, 4 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti "Şirvan-2" gəmisinə polad burazın satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 sentyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***

"Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinə məxsus aşağıda qeyd olunan seriyada İcbari əmlak sığortası növü üzrə blanklar itdiyi üçün etibarsız sayılır.

Blank nömrələri: BB321365, BB321366, BB321367, BB321368, BB321369, BB321370, BB321371, BB321372, BB321373, BB321374, BB321375, BB321376, BB321377, BB321378, BB321379, BB321380.

İSB
İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

## İcbari Sığorta Bürosunun Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə elan

Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçı sığorta şirkətləri: "AtaSığorta" ASC, "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "AzSığorta" ASC, "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti", "A-Qroup Sığorta Şirkəti" ASC, "Bakı Sığorta" ASC, "Günay Sığorta" ASC, "İpək Yolu Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Naxçıvansığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

***İcbari Sığorta Bürosu***

# "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihəsi Şuşada



Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün "Mənim atam qəhrəmandır" adlı layihənin növbəti silsilə tədbiri bu dəfə Şuşa şəhərində keçirilib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən AZƏRTAC-a bildiriblər ki, şəhid övladları səhər saatlarında hərbi polisin müşayiəti ilə onlara ayrılmış avtobuslarda Şuşa şəhərinə istiqamət alıblar. Şuşa şəhərinə "Zəfər marşı"nı ifa edərək daxil olan şəhid övladları tədbirə öz atalarının rəsmi həkk olunmuş geyimlərdə, digər uşaqlar subay şəhidlərimizin rəsmləri olan geyimlərdə, şəhid anaları isə öz övladlarının rəsmi olan və "Mənim qəhrəmanım" yazılmış geyimlərdə qatılıblar.

Şuşaya çatarkən onları İsa bulağında Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov qarşılayıb. Səhər yeməyi ərəfəsində doğum günü həmin günə təsadüf edən şəhid Ramid Hacıyevin övladı Əlini hər kəs təbrik edib. Aydın Kərimov şəhidimizin balaca balasını hədiyyə ilə sevindirib və onun üçün Şuşada hazırlanmış tort kəsilib.

Bundan sonra tədbir iştirakçıları Yuxarı Gövhərağa məscidinə gediblər. Orada general-mayor Polad Həşimovun anası Səmayə xanım başda olmaqla şəhid anaları namaz qılıb, Allaha dua ediblər.

Tədbirə qatılan Olimpiya çempionlarımız Cıdır düzündə uşaqlar üçün güləş təlimi keçiblər. Yarışın sonunda Olimpiya çempionları həm əylənən, həm də yarışan uşaqların hər birini birinci yer medalı ilə təltif ediblər.

Tədbirin gedişində şəhid anaları Şuşa qalasının önündə şəhidlərimizin ruhuna ehsan bişirərək hazırda Şuşada xidmət edən əsgərlərə veriblər.

Sonra tədbirin rəsmi hissəsi keçirilib. Rəsmi hissədə aparıcı Nərgiz Cəlilova qəhrəman övladlarını, şəhid analarını, şəhid xanımlarını və tədbirə qatılan digər qonaqları salamladıqdan sonra hamını müzəffər Ordumuzun şəhid qəhrəmanlarını bir dəqiqəlik sükutla yad etməyə çağırıb.

Tədbirin ikinci aparıcısı Lalə Azərtaş general-mayor Polad Həşimovun anası Səmayə xanıma söz verib. "Bu torpaqları gördükcə bir daha təsəvvür edirəm ki, burada necə ağır döyüşlər gedib, oğullarımız, şəhid balalarımız necə qəhrəmanlıqlar göstəriblər", - deyən şəhid anası qeyd edib ki, övlad həsrətinə dözmək çətin olsa da, oğlunun zəfərimizin bir parçası olması ilə qürur hissi keçirir.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, "Fire Land Production"un rəhbəri Cəlal Qurbanov şəhid analarına minnətdarlıqlarını bildiriblər

Rəsmi hissənin sonunda Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov şəhid övladlarına "Xarıbülbül" döş nişanı hədiyyə ediblər.

Daha sonra qəhrəman övladları əsgərlərimizlə birlikdə Şuşa Qalasının önündəki "Xarıbülbül" nişanını torpağa bərkidiblər. Bu zaman şəhid Ramiq Mikayılovun övladı Ağaseyid Mikayılov çıxış üçün söz istəyərək, təşkilatçılardan ona verilən "Xarıbülbül" nişanını hədiyyə olaraq Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya göndərmələrini xahiş edib.

Qeyd edək ki, tədbirə fəxri qonaq qismində qatılan Azərbaycanın Xalq artistləri Alim Qasımov, Zülfiyyə Xanbabayeva, Rasim Balayev, Nurəddin Mehdixanlı şəhid övladları, şəhid anaları ilə öz hisslərini bölüşüb, səmərəli vaxt keçiriblər. Zülfiyyə Xanbabayeva Cıdır düzündə "Şuşanın dağları" mahnısını ifa edib.

Tədbirin sonunda Cıdır düzündə şəhid övladları sənət adamları ilə birlikdə "Zəfər marşı"nı ifa edərək səmaya ağ göyərçinlər uçurublar və bununla da dünyaya "Müharibə olmasın! Uşaqlar atasız qalmasınlar!" mesajını veriblər.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti fərdi mühafizə vasitələrinin (ipli çəkmə və əlcəklər) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 oktyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti 1547 layihəli yeni tikilən 6 gəmi üçün kabel kanallarının (trey) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 oktyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1171.

***Tender komissiyası***

# "Bizim dövlətimiz yoxdur. Müstəqilliyimiz yoxdur. Şərəfimiz yoxdur"

*Əvvəli 1-ci səh.*

İradlar və tənqidlər isə ona görə idi ki, Ermənistanın xüsusən indiki - Qarabağda sarsıdıcı məğlubiyyətə uğrayıb olan-qalan suverenliyini, dövlət kimi müstəqilliyini də əldən verdiyi bir vaxtda bu günü bayram etməyə haqqı yoxdur.

Odur ki, Ermənistan prezidenti Armen Sarkisyan, baş nazir Nikol Paşinyan, parlamentin sədri Alen Simonyan və digər yüksəkvəzifəli şəxslər müstəqillik günü münasibətilə "Yerablur" hərbi panteonuna yollandılar. 44 günlük müharibədə ölənlərin valideynləri isə məzarlıqda toplaşaraq buna da etiraz etdilər. Onlar Paşinyanın panteonu ziyarət etmək hüququnun olmadığını bildirərək onu övladlarının məzarının yaxınlığına buraxmaq istəmirdilər. Bu səbəbdən hökumət nümayəndələrinin korteji gəldikdən sonra valideynlər güc yolu ilə panteondan uzaqlaşdırılmışdı.

Həmin gün Yerablurdakı jurnalistlərin işi də məhdudiyyətlərlə başlamışdır. Bir neçə kvadratmetrlik xüsusi bir sahə qırmızı lentlə hasarlanaraq jurnalistlərin bu ərazidən çıxmasına, vəzifəli şəxslərə yaxınlaşmasına və onlara sual verməsinə icazə verilməmişdi. Bununla hüquq mühafizə orqanlarının əməkdaşları, həmçinin ölən hərbçilərin valideynləri və jurnalistlər arasında canlı sədd yaradılmışdı və bu səbəbdən KİV nümayəndələri onlara da sual verə bilməmişdilər.

Sabiq prezident Serj Sarkisyanın rəhbər olduğu Respublika partiyasının sədr müavini Armen Aşotyan "Facebook" səhifəsində yazıb ki, heç cür təbrik etmək alınmır: "Bizim dövlətimiz yoxdur. Müstəqilliyimiz yoxdur. Şərəfimiz yoxdur. Artsax (Qarabağ - **red.**) yoxdur. 5000 nəfər yoxdur. Əsir düşənlər yoxdur. Ölənlərin meyitləri yoxdur. Bizdə ancaq fantom ağrılar var-itirilmiş ləyaqətə görə. Müstəqillik Yeni il deyil ki, səndən asılı olmadan gəlsin, qeyd edəsən, yaxud etməyəsən. Müstəqillik təqvimlə ölçülmür və əgər təqvimdə qırmızı rənglə işarələnibsə, deməli var. Bu gün müstəqillik günü deyil, bu gün müstəqilliyin yas günüdür".

Cərəyan edən siyasi proseslərin fonunda ağır sosial-iqtisadi durumda olan xalq isə hakimiyyət əleyhdarlarına daha çox etimad göstərməyə başlayır. Bununla bağlı Ermənistan mətbuatı yazır ki, yaranmış vəziyyət ölkə əhalisinin qul kimi yaşadığını göstərir. Bildirilir ki, Ermənistanda qəbul edilən bütün qanunlar və dövlət proqramları yalnız bir qrup hakimiyyət nümayəndəsinin maraqlarına xidmət edir. Ölkədə keçirilmiş parlament və prezident seçkiləri xalqın deyil, hakim dairələrin iradəsinin nəticəsi olur. Ermənistanın iri müəssisələri xarici iş adamlarına satılıb. Kriminallaşmış hakimiyyətdən ehtiyat edən xarici şirkətlər Ermənistana investisiya qoymaq istəmirlər. Qonşuları ilə normal əlaqələr qura bilməyən hakimiyyət dövləti və xalqı məhvə sürükləyir.

"4rd.am" saytının yazdığına görə, Ermənistanda fəaliyyət göstərən hakimiyyət strukturlarının heç biri legitim deyil. Qeyd olunur ki, diaspor təşkilatlarının hesabına büdcəni dolduran hakimiyyət indiyədək bir dənə də olsun iqtisadi layihə həyata keçirməyib. Müharibədəki məğlubiyyət fonunda baş verən maliyyə böhranı diaspor təşkilatlarının maliyyə mənbələrinə çox pis təsir göstərib. Qərb dövlətləri də maliyyə böhranı ilə əlaqədar humanitar məqsədlər üçün ayırdıqları vəsaitləri xeyli azaldıblar. Ona görə də diaspor təşkilatları bu il də Ermənistana böyük yardım göstərə bilməyib.

Beləliklə, hadisələrin inkişaf axarı Ermənistanın daha böyük problemlər bataqlığına sürükləndiyini və ölkənin məhvinin qaçılmaz olduğunu göstərir. Əslində, bu, o qədər də təəccüblü deyil. Çünki Ermənistan elə bir vəziyyətə düşüb ki, ölkənin gələcək taleyi kənarda həll olunur. Ermənistanın hərbi-siyasi rəhbərliyinin isə prosesə təsir göstərmək imkanları, demək olar ki, yoxdur. Bu, Cənubi Qafqaz regionunda yaranmış yeni geopolitik şərtlərdən qaynaqlanır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**QADİR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5014
Sifariş 1741
Qiyməti 40 qəpik